UOT 94(479.24)
https://doi.org/10.59849/2710-0820.2026.1.71

**İbrahim Quliyev**
*Fəlsəfə üzrə fəlsəfə doktoru*
*Azərbaycan İlahiyyat İnstitutunun İslamşünaslıq kafedrasının müəllimi,*
*"Hacı Cavad" məscidinin imamı,*
*Azərbaycan*
*quliyev.ibrahim.78@mail.ru*
*https://orcid.org/ 0000-00019789-3148*

# CARULLAH ZƏMƏXŞƏRİNİN "TƏFSİRÜL-KƏŞŞAF" ƏSƏRİNDƏ ƏHLİ-BEYTİN FƏZİLƏTLƏRİ HAQQINDA NƏQL OLUNMUŞ HƏDİSLƏR VƏ ONLARIN TƏDQİQ-TƏHLİLİ

***Açar sözlər:*** *Qurani-Kərim, Əhli-beyt, Carullah Zəməxşəri, "əl-Kəşşaf" təfsiri, hədis mənbələri.*

**Giriş**

Carullah Zəməxşərinin "əl-Kəşşaf" təfsiri Qurani-Kərimin ən böyük və ən mühüm ədəbi təfsirlərindən biri hesab olunur. Baxmayaraq ki, Carullah Zəməxşəri şəriət prinsiplərində Mötəzilə cərəyanına mənsub idi, lakin onun təfsiri ədəbi baxımdan bənzərsiz və mükəmməldir. Əbəs deyildir ki, əsər haqqında təkcə təfsir və hədisşünaslar deyil, eyni zamanda ədib və şairlər də öz fikirlərini bildirmiş, onun bənzərsiz və mötəbərliyini dilə gətirmişlər.

Zəməxşəri ədəbiyyat, hədis və xitabət haqqında çoxlu kitab yazmışdır. O, Kəbə evinin yaxınlığında məskunlaşdığı üçün "Carullah", yəni "Allahın qonşusu" ləqəbi ilə tanınmışdır. Müəllif "əl-Kəşşaf" təfsirini də həmin zamanda yazıb ərsəyə gətirmişdir. Əsərin üstün xüsusiyyətlərindən biri də orada Əhli-beytin fəzilət və üstünlüklərinə aid olan ayələrin dəlilli-sübutlu izah olunmasıdır. Carullah Zəməxşəri Əhli-beytin kimliyini dərindən dərk etdiyi, onların İslamda hansı mövqeyə sahib olduğunu mükəmməl bildiyi və haqlarında saysız hədislərin nəql olunduğuna şübhə etmədiyi üçün "əl-Kəşşaf" əsərində onlar haqqındakı məlumatlara həssas yanaşmışdır. Çünki Əhli-beyt Quran ayələri və mütəvatir hədislərə görə Qurana bərabər varlıqlardır. Onlardan birinə digəri olmadan yapışmaq hər ikisini tərk etmək mənasındadır. Quran və Əhli-beyt peyğəmbərliyin cövhəri, risalətin davamı və Qiyamətə qədər bəşəriyyətin hidayətinə zəmanət verən əsas mənbədirlər.

Qurani-Kərimin təlimlərindən bəhrələnmək üçün təfsir elminə ehtiyac vardır. Bu elmin vasitəsi ilə Qurani-Kərimin ayələrinin düzgün təfsiri və ayələrdə Uca Allahın məqsədinin nə olduğunu dərk etmək mümkün olur. Təfsirşünas isə izah edəcəyi ayələri doğru-düzgün şəkildə təqdim etməsi üçün təfsir elminə mükəmməl yiyələnməli, bu elmin tarixini, əsaslarını və qaydalarını dərindən bilməlidir. Belə mükəmməliyə sahib olan təfsirşünaslardan biri heç şübhəsiz ki, XII əsrin alimi Carullah Zəməxşəridir (1075-1144). O özünün məşhur "əl-Kəşşaf" əsərində bir çox təfsirşünaslar kimi adət-ənənələrə uyğun olaraq Qurani-Kərimin bəzi ayələrini Həzrət Peyğəmbərin Əhli-beytinə aid olduğunu yazmış, bu mövzudakı fikirlərini əsaslandırmaq üçün mötəbər hədislərə istinad etmişdir.

Carullah Zəməxşərinin yazdığı "əl-Kəşşaf" təfsiri Quran təfsirinin ən böyük və ən dəqiq mətnlərindən biridir və dirayə təfsirləri sırasındadır. Tarix boyu Quranın bəlağətini, söz və semantik gözəlliyinə əsaslanaraq ayələrin səmavi olduğunu isbat etmək bir çox təfsirçinin sevimli işi olmuşdur. Bu səbəbdən də "əl-Kəşşaf" təfsiri bir tərəfdən Quranın ecazkarlığını sübuta yetirmək üçün bu semantik incəlikləri və ritorik məqamları izah etmək, təsvir etmək və ədəbiyyat nümunələrindən də istifadə etməklə estetik bir yanaşma tərzində yazılmışdır. Carullah Zəməxşərinin mənsub olduğu Mötəzilə cərəyanı əsərdə yeri gəldikcə onun kəlami-etiqadi müzakirəyə meyil etməsinə, burada ağıl (rasionallıq)

və ictihaddan istifadə etməsinə də səbəb olmuşdur. Buna görə də o, müxalifləri öz dəlilləri ilə rədd edərkən, onların təfsirlərinin nöqsanlarına və təfsirçilərin “israiliyyat”dan nəql etmələrinə də toxunmuşdur. Buna görə də deyə bilərik ki, “əl-Kəşşaf” təfsiri rasional yanaşmaya malikdir.

“əl-Kəşşaf” təfsiri qrammatika, kəlam, fiqh, hədis və ritorik mövzulara dair dəlillərlə, eləcə də qiraətdəki ixtilafların araşdırılması və düzgün qiraətə üstünlüyün verilməsi, habelə təfsirçilərin ifadələrinə və onların cavablarına etirazlarla doludur. Bununla yanaşı, əsər həm də oxucunu dərindən düşündürməsi və təfsirin müxtəlif aspektlərinin izahı üçün yeni sualların ortaya qoyulması baxımdan da zəngin və maraqlıdır. Lakin qeyd etmək lazımdır ki, “əl-Kəşşaf” təfsirinə bir çox Əşəri və digər cərəyanların etirazları olsa da, keçmiş və müasir dövrdə tədqiqatçılar Carullah Zəməxşərinin adı çəkilən əsəri barədə çoxlu şərhlər və ya təkziblər yazmışlar. Amma bunu unutmaq olmaz ki, “əl-Kəşşaf” əsəri mötəbər təfsirlərdən biri olaraq həmişə diqqət mərkəzində olmuşdur. Tədqiqatçıların əsər haqqındakı görüşləri bizə bunu deməyə əsas verir deyək ki, “əl-Kəşşaf” təfsirində iki xüsusiyyət qabarıq və aşkar şəkildə özünü göstərir. Biri əsərin ritorikası, digəri isə bu yozumun rasionalizmidir. Şübhə yoxdur ki, “əl-Kəşşaf” təfsirinin əhəmiyyəti rasionallıqdadır və ayələrin mənası haqqında müzakirə-mübahisə etmək bu təfsirin xüsusiyyətlərindən biridir.

Bu məqaləmizdə Carullah Zəməxşərinin “əl-Kəşşaf” əsərində Əhli-beytə aid ayələrin şəni-nüzulunu hədislər vasitəsi ilə tətbiqi təhlil edilmişdir. Tədqiqatın nəticələri göstərir ki, Carullah Zəməxşəri mövzuya uyğun ayələrin nazil olma səbəblərini “əl-Kəşşaf” əsərində ətraflı izah etmiş, lakin Əhli-beytin fəzilətləri haqqında olan ayələrdən yalnız təqribən 10%-ni (200 ayədən 21 ayə) qeyd etmişdir. Həmçinin müəllif Əhli-beytin fəzilətlərinə aid olan ayələrin mövzu ilə bağlı digər ayələrlə müqayisəsini aparmamış, onların müqayisəli təhlilini verməmiş və onlarla bağlı müsəlman dünyasında olan fikirləri də bildirməmişdir. Ondan fərqli olaraq isə bəzi təfsirşünaslar, o cümlədən Hakim əl-Həskani (XI əsr) “Şəvahid ət-Tənzil” əsərində 210 ayənin izahında 1200-dən çox rəvayətə istinad edərək Əhli-beytin fəzilətlərini ümumi şəkildə vəsf və izah etmişdir. Amma araşdırmamız zamanı məlum oldu ki, Carullah Zəməxşəri cəmi bir neçə yerdə açıq şəkildə Əhli-beytin fəzilətlərindən bəhs etmiş və ya ayələrin nazil olmasının səbəbi-nüzulu kimi Əhli-beyti hesab etmişdir.

Məqalə təfsir və hədis mənbələrinə istinad edilərək, təsviri-analitik üsulla, internet resurslarından istifadə etməklə və digər təfsirşünasların mövzu ilə bağlı izah etdikləri ayələrə, nəql etdikləri rəvayətlərə və onlara verdikləri şərhlərə istinad edilərək yazılmışdır. Burada Carullah Zəməxşərinin Əhli-beytin fəzilət və üstünlükləri haqqında nazil olmuş ayələrə olan baxışını və bu məsələdən irəli gələn problemlərin araşdırılması öz əksini tapır. Bunu da qeyd edək ki, Carullah Zəməxşərinin mövzu ilə əlaqəli ayələri təfsir edərkən istinad etdiyi hədislər onu göstərir ki, müəllif hədislərə üstünlük vermiş və bununla da hədislərin Qurani-Kərimin izah edilməsində ciddi yerə sahib olduğunu bildirmişdir. Çünki bildiyimiz kimi, Qurani-Kərimdə qeyd olunmayan, lakin ayələrin nazil olması və onların düzgün təfsirini izah edən mühüm istinad nöqtəsi hədislərdir. Amma tədqiqatımız zamanı məlum oldu ki, Carullah Zəməxşəri Əhli-beytin fəzilətlərindən bəhs etsə də, Qurani-Kərimdəki “vilayət” sözünün həqiqi mənası və İmam Əlinin imamətinin bu ayələr əsasında sübutu və izahı məsələsində nazil olmuş bəzi ayələr (“əl-Maidə” surəsinin 3, 55 və 67-ci, “əl-Əhzab” surəsinin isə 33-cü ayələri) barəsində susmuşdur. Bunun da əsas səbəbinin müəllifin bəzi təfsir qaydalarına diqqət yetirməməsi, rasionalizm və Mötəzilə cərəyanının teoloji əsaslarına bağlılığından irəli gəldiyini düşünük.

## 1. Qurani-Kərim və hədis mənbələrində Əhli-beyt mövzusu

Tədqiqatçıların fikrincə, Qurani-Kərimdə üç yerdə Əhli-beyt kəlməsinə rast gəlinir (Öz 1994, s.498). İlk olaraq qeyd olunan ayə “Hud” surəsinin 73-cü ayəsidir. Burada Həzrət İbrahimlə bağlı əhvalat vardır. Ayə Allah-Taalanın göndərdiyi iki mələklə İbrahim peyğəmbərin və xanımı arasındakı söhbətdən bəhs edir: ***“Ey ev əhli! Allahın bərəkəti və mərhəməti siz əhli-beytə olsun. Allah təriflə layiq, şan-şöhrət sahibidir”.***

Əhli-beyt kəlməsinin keçdiyi ikinci ayə isə “Qəsəs” surəsinin 11-12-ci ayələridir: ***“O,*** (Mu-

sanın Məryəm, yaxud Gülsüm adlı) ***bacısına: "Onun dalınca get!*** (Əhvalatından xəbər tut) ***- dedi. O da,*** (saraya yol tapıb Fironun adamları onun kim olduğunu) ***hiss etmədən uzaqdan-uzağa*** (Musanı) ***gördü. Bundan*** (anası saraya gəlməmişdən) ***qabaq biz ona*** (Musaya) ***süd analarını*** (özgə qadınların döşünü əmməyi) ***qadağan etmişdik.*** (Musanın bacısı Firon əhlinə) ***belə dedi: "Sizin üçün o uşağa süd verməyi*** (ona baxmağı) ***təmin edəcək, həm də ona qarşı xeyirxah olacaq*** (onunla yaxşı davranacaq) ***bir ailəni*** (ev əhlini) ***sizə nişan verimmi?"***

Quranda Əhli-beyt kəlməsinin keçdiyi üçüncü və ən son, ancaq mövzumuza daha çox uyğun gələn ayə "Əhzab" surəsinin 33-cü ayəsidir. Həmin ayədə buyurulur: ***"Əhli-beyt, Allah sizdən hər növ pisliyi, günahı aradan qaldırmaq və sizi tərtəmiz bir hala gətirmək istəyir".***

Bu ayənin önəmi Həzrət Peyğəmbərin Əhli-beytinin kimlər olması barədə bizə dəqiq məlumat verən bir ayə olmasıdır. Digər tərəfdən də Əhli-beytin əhəmiyyətinin qaynağı qəbul edilən bu ayə, onlardan hər cür maddi və mənəvi pisliyin təmizlənməsinin məhz Uca Allah tərəfindən olduğunu göstərir (İsmayılzadə 2007, s.208).

Göründüyü kimi, Əhli-beytin Allah-Taalanın iradəsi ilə paklanması xüsusi şəkildə vurğulanmışdır. Ayəynin sonunda zikr olunmuş **"təthiran"** sözü isə ərəb dili qrammatikasına əsasən ayədə bəyan edilən paklaşdırmaya təkid göstərən məsdərdir. Ona görə də "Təthir" ayəsi Əhli-beytin hər növ maddi və mənəvi, həmçinin aşkar və gizli sayılan günah, eyib, nöqsan və çirkinliklərdən uzaq olduğuna dəlalət edir.

Məlum olduğu kimi, Həzrət Peyğəmbər bu ayə nazil olduqdan sonra İmam Əli, Həzrət Fatimə, İmam Həsən və İmam Hüseyni öz yanına çağıraraq, əbasını onlara bürümüş və **"İlahi! Bunlar mənim əhli-beytimdir"**, - deyə buyurmuşdur. Bu, bütün hədis mənbələrində öz əksini tapmış səhih hədislərdəndir. Həmin hədisi nəql edən hədisşünasların rəvayətinə və hədisin mənbələrinə nəzər salaq:

Əhməd bin Hənbəl (780-855) səhih bir sənədlə belə rəvayət etmişdir:

حدثنا عبد الله بن نمير قال: حدثنا عبد الملك يعني إبن أبي سليمان، عن عطاء بن أبي رباح قال: حدثني من سمع أم سلمة تذكر أن النبي كان في بيتها فأتته فاطمة ببرمة فيها خزيرة فدخلت بها عليه، فقال لها: **إدعي زوجك وأبنيك**، قالت: فجاء علي والحسين والحسن فدخلوا عليه فجلسوا يأكلون من تلك الخزيرة وهو على منامة له على دكان تحته كساءً له خيبري قالت: وأنا أصلي في الحجرة فأنزل الله عز وجل هذه الآية: **إنما يريد الله ليذهب عنكم الرجس أهل البيت ويطهركم تطهيرا.** قالت: فأخذ فضل الكساء فغشاهم به، ثم أخرج يده فألوى بها إلى السماء، ثم قال: **اللهم هؤلاء أهل بيتي وخاصتي فأذهب عنهم الرجس وطهرهم تطهيرا، اللهم هؤلاء أهل بيتي وخاصتي فأذهب عنهم الرجس وطهرهم تطهيرا**، قالت: فأدخلت رأسي البيت، فقلت: وأنا معكم يا رسول الله، قال: **إنك إلى خير إنك إلى خير.**

"...Ümmi-Sələmə dedi: "Peyğəmbər mənim evimdə olarkən qızı Fatimə gəldi. Peyğəmbərə əlində saxsı qabda bişmiş ayrıq (buğda növündən yemək) gətirdi. Peyğəmbərin əynində xeybəri əbası vardı. Mən də otaqda idim. O, Peyğəmbərin yanına daxil oldu. Həzrət ona buyurdu: **"Ərini və iki oğlunu mənim yanıma çağır"**. Bir azdan Əli, Həsən və Hüseyn gəldilər. Onlar Peyğəmbərin yanına girdilər və yemək üçün onun yanında oturdular. Peyğəmbərin xeybəri əbası vardı. O, onları əbanın altına aldı. Uca Allah: "***Ey Əhli-beyt! Allah sizdən çirkinliyi*** *(günahı)* ***yox etmək və sizi tərtəmiz*** *(pak)* ***etmək istər!"*** ayəsini nazil etdi. Ümmi-Sələmə deyir: "Beləliklə, o, əbanın artıq hissəsini götürdü və onunla onların üstünü örtdü, sonra isə əlini yuxarı qaldırıb dedi: **"Ey Rəbbim! bunlar mənim əhli-beytimdir. Onlardan hər növ çirkinlikləri uzaq et və onları tər-təmiz et"**. Mən başımı əbanın altına salıb dedim: "Mən də sizdənəm, ey Allahın Rəsulu?" Dedi: **"Sən xeyir üzərindəsən! Sən xeyir üzərindəsən!"** (əş-Şeybani (1) tarixsiz, s.292. Hədis № 26508).

Müslim bin Həccac ən-Nisaburi (821-875) səhih bir sənədlə Həzrət Peyğəmbərin xanımı Aişədən belə nəql edir:

خرج النبي غداةً، وعليه مرط مرحّل من شعر اسود فجاء الحسن بن علي فادخله ثم جاء الحسين فدخل معه ثم جاءت فاطمة فادخلها ثم جاء علي فادخله ثم قال: **انما يريد الله ليذهب عنكم الرجس أهل البيت ويطهركم تطهيرا.**

"Peyğəmbər üzərində qara yundan məmul naxışlı bir əba olduğu halda səhər çağı (evdən) çıxırdı. Bu vaxt Həsən bin Əli gəldi. Onu əbanın içinə aldı, sonra Hüseyn gəldi, o da əbanın altına girdi. Sonra Fatimə gəldi. Peyğəmbər onu da içəri aldı. Sonra Əli gəldi. Onu da içəri aldı. Sonra ***"Əhli-beyt, Allah sizdən hər növ pisliyi, günahı aradan qaldırmaq və sizi tərtəmiz bir***

***hala gətirmək istəyir”*** - ayəsini oxudu” (ən-Nisaburi 1419/1999, s.1067. Hədis № 6261).

İbn Teymiyyə (1263-1328) bu hədis haqqında yazırdı:

وأما حديث سعد لما أمره معاوية بالسب فأبى، فقال: ما منعك أن تسب علي بن أبي طالب؟ فقال: ثلاث قالهن رسول الله - صلى الله عليه وسلم - فلن أسبه، لأن يكون لي واحدة منهن أحب إلي من حمر النعم... الحديث. فهذا حديث صحيح رواه مسلم في صحيحه وفيه ثلاث فضائل لعلي.

“Sədin hədisinə gəldikdə isə, Müaviyə ona Əlini söyməyi əmr etdikdə, o, qəbul etməmişdi, bu zaman Müaviyə dedi: “Sənə Əli bin Əbi Talibi söyməyə nə mane olur?” Səd cavab verdi: “Peyğəmbər (Əli haqqında) üç şey deyib ki, mən heç vaxt onu söymərəm. Əgər həmin üç şeydən biri mənim olsaydı, (bu) mənə qırmızı rəngli dəvə sürüsündən daha sevimli olardı...” Bu hədis səhihdir və Müslim onu “əs-Səhih” kitabında rəvayət edib. Orada Əli barədə üç fəzilət vardır” (İbn Teymiyyə 1406/1986, s.42).

İbn Cövzi (1252-1350) “Kəşfül-müşkil” əsərində yazırdı:

قيل: عُنِيَ بأهل البيت هنا النبي صلى الله عليه وسلم وعلي وفاطمة والحسن والحسين عليهم السلام، رواه الخدري عن النبي صلى الله عليه وسلم أنه قال: **نَزَلَتِ الآيَة فِي خَمْسٍ: فِيَّ وَفِي علي وحَسَنٍ وحُسَينٍ وَفَاطِمَةَ**. وهو قول جماعة من الصحابة.

“Deyilmişdir ki, Əhli-beyt, Peyğəmbər, Əli, Fatimə, Həsən və Hüseyndir. (Əbu Səid) əl-Xudri Peyğəmbərdən belə rəvayət etmişdir: **“Bu ayə beş adam haqqında nazil olmuşdur. Mən, Əli, Fatimə, Həsən və Hüseyn”**. Bu, səhabələrin fikiridir” (əl-Cövzi tarixsiz, s.418).

Şəmsəddin əz-Zəhəbi (1274-1348) yazırdı:

وفي فاطمة وزوجها وبنيها نزلت: **إنما يريد الله ليذهب عنكم الرجس أهل البيت ويطهركم تطهيرا** فجللهم رسول الله صلى الله عليه وسلم بكساء وقال: **اللهم هؤلاء أهل بيتي.**

“Fatimənin əri və oğulları haqqında bu ayə nazil oldu: ***“Əhli-beyt, Allah sizdən hər növ pisliyi, günahı aradan qaldırmaq və sizi tərtəmiz bir hala gətirmək istəyir”.*** Sonra Peyğəmbər onları əba (kisa) ilə örtdü və dedi: **“Ey Rəbbim, bunlar mənim Əhli-beytimdir”** (əz-Zəhəbi 1410/1990, s.44).

İbn Həcər əl-Əsqəlani (1372-1449) “Təthir” ayəsinin təfsiri haqqında yazırdı:

وفي ذكر البيت معنى اخر لان مرجع أهل بيت النبي صلى الله عليه و سلم إليها لما ثبت في تفسير قوله تعالى **انما يريد الله ليذهب عنكم الرجس أهل البيت.** قالت أم سلمة لما نزلت دعا النبي صلى الله عليه و سلم فاطمة وعليا والحسن والحسين فجللهم بكساء **فقال: اللهم هؤلاء أهل بيتي.** الحديث أخرجه الترمذي وغيره ومرجع أهل البيت هؤلاء إلى خديجة لان الحسنين من فاطمة وفاطمة بنتها وعلي نشا في بيت خديجة وهو صغير ثم تزوج بنتها بعدها فظهر رجوع أهل البيت النبوي إلى خديجة دون غيرها.

“Beyt” ləfzinin qeyd edilməsinin bir başqa mənası daha vardır. Çünki Peyğəmbərin Əhli-beytinin çatdığı yer odur (Həzrət Xədicədir). Necə ki, Uca Allahın: ***“Ey Əhli-beyt, Allah sizdən ancaq çirkinliyi aradan qaldırıb, sizi təmizləmək istər”*** - buyruğunun təfsiri ilə əlaqədar olaraq sübut olduğuna görə, Ümmü-Sələmə belə demişdir: “Bu ayə nazil olduqda Peyğəmbər Fatiməni, Əlini, Həsəni və Hüseyni çağırdı. Onların üzərini bir paltar ilə örtərək: **“Ey Rəbbim, bunlar mənim Əhli-beytimdir”** – demişdir. Bu hədisi Tirmizi və başqaları rəvayət etmişlər. Bütün bu Əhli-beytin sığınacağı yer isə Xədicədir. Çünki Həsən ilə Hüseyn Fatimədəndir. Fatimə də onun qızıdır. Əli də Xədicənin evində kiçik yaşdan bəri böyümüş, onun vəfatından sonra da qızı ilə evlənmişdir. Beləliklə, Əhli-beytin başqasına deyil, yalnız Xədicəyə aid olduğu da ortaya çıxır” (əl-Əsqəlani tarixsiz, s.104).

Şeyx əs-Səduq (917-991) və Cəlaləddin əs-Süyuti (1445-1505), Əllamə əl-Məclisi (1628-1700) Həzrət Peyğəmbərin xanımı Ümmü-Sələmədən səhih bir sənədlə belə rəvayət edirlər:

نزلت هذه الاية في بيتي: **(انما يريد الله ليذهب عنكم الرجس اهل البيت ويطهركم تطهيرا)**، وفي البيت سبعة: جبرئيل وميكائيل وعلي وفاطمة والحسن والحسين رضي الله عنهم وانا على باب البيت. قلت: ألست من اهل البيت، قال: **انك الى خير، انك من ازواج النبي.**

***“Ey Əhli-beyt! Həqiqətən Allah istəyir ki, pisliyi siz Əhli-beytdən apara və sizi gözəl şəkildə pak edə”*** ayəsi mənim evimdə nazil oldu. Evdə yeddi nəfər idik: Cəbrayıl, Mikayıl Əli, Fatimə, Həsən, Hüseyn və mən də qapının astanasında idim. Mən dedim: “Mən Əhli-beytdən deyiləm?” Peyğəmbər dedi: **“Sən xeyir üzərindəsən və Peyğəmbərin zövcəsisən”** (əl-Qummi 1417 h/q, s.559. Hədis № 746; əs-Süyuti 1993, s.198; əl-Məclisi 1403/1983, s.209. Hədis № 9).

Xatırladaq ki, bütün bu deyilənlərdən əlavə, sözügedən hədisləri bu və ya digər şəkildə hədis alimlərindən Əbu Yəla (825-919) “Müsnəd” (XII c, s.344), Məhəmməd bin Əhməd əd-Dulabi (öl. 932) “əz-Zəriətüt-Tahirə”

(s.150), Təbərani (873-970) "əl-Möcəm" (III c, s.53), ət-Təhavi (843-933) "Müşkilül-asar" (II c, s.244), Şeyx əs-Səduq (917-991) "əl-Xisal" (s.403), əl-Heysəmi (1335-1405) isə "Məcməüz-zəvaid" (IX c, s.120) əsərlərində də qeyd etmişlər.

Beləliklə, deyə bilərik ki, Əhli-beytin bütün müsəlmanlar arasında çox böyük dəyəri və rolu vardır və onların yerlərinin müəyyənləşdirən ən önəmli dəlil isə heç şübhəsiz ki, Qurandakı "Təthir" ayəsidir. Bu ayəyə bağlı olaraq Həzrət Peyğəmbər bəzi tətbiqatlar etmiş, istər məfhumun açıqlanmasına, istərsə də Əhli-beytin vəziyyətinə dair diqqəti cəlb edən, dəlalətedici mənalar vermişdir. Burada üzərində dayanılan əsas xüsus ayədə keçən **"rics - رِجْسٌ"** kəlməsidir. Çünki ayədə Uca Allahın onlardan **"rics"**in qaldırılmasını istəməsi bildirilir. Burada Allah-Taalan günahlar üçün **"rics"** (kir), təqva üçün **"təhərə"** (təmizlik) kəlmələrini işlətmişdir (es-Sabuni, 1995. S. 84). Bu da onu göstərir ki, Uca Allah şəxsən onlarla maraqlanır, onları təmizləmək, pislikdən uzaq tutmaq istəyir (Kutub 1991, s.323).

### 2. Carullah Zəməxşərinin "əl-Kəşşaf" əsərində Əhli-beyt mövzusu

Qurani-Kərimin ayələrinin düzgün başa düşülməsinə nail olmaq üçün təfsirşünasların əsərlərinə bələd olmaq lazımdır. Çünki İlahi vəhyin mənasının düzgün izah edilməsi hər bir təfsirşünasın əsas vəzifəsidir. Yazacağı təfsiri tərtib etdikdən sonra, bu mühüm vəzifəni doğru şəkildə və müxtəlif üsullarla həyata keçirən təfsirşünas digər ayələrlə yanaşı, hədisləri də əsas götürür. Beləliklə, hər bir təfsirçi Müqəddəs Kitabın ayələrini öz dövrlərində təfsir etmişlər. Belə təfsirşünaslardan biri də Carullah Zəməxşəridir.

Carullah Zəməxşərinin "əl-Kəşşaf" əsərində aşağıdakı ayələrin Əhli-beytin fəzilətləri haqqında nazil olduğunu və yaxud həmin ayələrdə onların üstünlüklərinə işarə olduğunu görürük.

#### "Ali-İmran" surəsi 61-ci ayə

"Ali-İmran" surəsinin 61-ci ayəsi təfsir və hədisçilərə görə "Mübahilə" ayəsi kimi tanınır. Həmin ayədə Allah-Taala buyurur:

**فَمَنْ حَاجَّكَ فِيهِ مِنْ بَعْدِ مَا جَاءَكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْا نَدْعُ أَبْنَاءَنَا وَأَبْنَاءَكُمْ وَنِسَاءَنَا وَنِسَاءَكُمْ وَأَنْفُسَنَا وَأَنْفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَلْ لَعْنَتَ اللَّهِ عَلَى الْكَاذِبِينَ.**

"(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) ***sənə göndərilən elmdən*** *(məlumatdan)* ***sonra buna*** *(İsanın əhvalatına)* ***dair səninlə mübahisə edənlərə de: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü*** *(bura)* ***çağıraq! Sonra*** *(Allaha)* ***dua edib yalançılara Allahın lənət etməsini diləyək!"***.

"Mübahələ" ərəb sözü olub, hər hansı bir şeyi öz başına qoymaq və azadlığa buraxmaq mənasını verir. Sözün mənalarından biri də dişi heyvanın balası rahatlıqla onun südündən qidalana bilsin deyə bağlamayıb, onu azad buraxmaqdan ibarətdir. Belə bir dişi heyvan isə ərəb dilində "bahil" adlanır. Həmçinin lüğət kitablarında yazıldığına görə, söz "qarğış etmək" mənasını da bildirir (Sarı 1982, s.135).

Dini terminologiyada isə hər hansı bir fərdi, ictimai, dini və s. işlərdə bir-biri ilə ixtilaflı olan iki nəfər və ya iki dəstənin bir-birinə Uca Allah dərgahına yönələrək qarğış etməsi və yalançı (zülümkar) şəxsi və ya dəstənin rüsvay və Allah-Taalanın əzabına düçar olmasını diləməsinə deyilir (İsmayılzadə 2007, s.288-289).

İslam tarixində baş vermiş Mübahilə hadisəsi Həzrət Peyğəmbərin nəcranlı xristianlarla görüşməsi və bu görüşmə nəticəsində onları mübahələyə (qarğışa, qarşılıqlı lənətləşməyə) çağırmasıdır. Həzrət Peyğəmbərin Həzrət İsa haqqındakı həqiqətləri qəbul etməyən nəcranlı xristianları (Haşimi tarixsiz, s.92) qarğışa çağırmaq istədiyindən bu ayə "Mübahilə ayəsi" deyə anılır (Heyət 2006, s.589). Allahın Rəsulu İslamı təbliğ etmək üçün ətrafdakı qəbilə və dəstələrə göndərdiyi mək-tublardan birini də Nəcranda yaşayan xristianlara göndərmişdi. Göndərilmiş məktuba görə hicrətin 9-cu (miladın 631-ci) ilində nəcranlılar qəbilə başçıları ilə Mədinəyə gəlmişdilər. Onlar Həzrət Peyğəmbərə İsa peyğəmbərin atasının kim olduğunu soruşmuş, Allahın Rəsulu isə bu suala cavab verməmişdi (İbn Hişam 2001, s.291). "Ali-İmran" surəsinin ilk 80 ayəsinin bu hadisədən sonra nazil olduğu bildirilir (Hamidullah 1993, s.620). Nazil olan bu ayələr arasında 61-ci ayəyə uyğun olaraq Həzrət Peyğəmbər onları

mübahiləyə çağırmışdır (Bursevi 2005, s.139-140). Hədis və təfsir qaynaqlarında bu hadisədən sonra Həzrət Peyğəmbər yanına İmam Əlini, Həzrət Fatiməni, İmam Həsən və İmam Hüseyni alaraq (Celaleyn 1997, s.211) onlarla mübahiləyə getmişdir (Razi 1994, s.370-371).

Mənbələrin hamısında nazil olan ayə ilə nəql edilən hadislər bir-biri ilə əlaqələndirilmiş, ayədəki **"əbnaənə"** kəlməsində məqsədin İmam Həsən və İmam Hüseynin, **"nisaənə"** kəlməsində isə Həzrət Fatimənin və **"ənfusənə"** kəlməsində isə İmam Əlinin nəzərdə tutulduğu bildirilmişdir.

Həmçinin təfsirşünaslarla bərabər hədisşünaslara görə də bu ayə İmam Həsən və İmam Hüseynin Həzrət Peyğəmbərin oğulları olduğuna dəlalət edir. Çünki Allahın Rəsulu oğullarını çağıracağını vəd etdikdə İmam Həsən ilə İmam Hüseyni çağırmışdı. Bunu xüsusi olaraq qeyd edirik ki, Uca Allah "Ənam" surəsinin 84-85-ci ayələrində Həzrət İbrahimin zürriyətini sayarkən İsa peyğəmbəri də xatırlamışdır. Onun İbrahim peyğəmbərə bağlılığı isə heç şübhəsiz ki, ata tərəfdən olmayıb, sadəcə, ana tərəfindən olduğu məlumdur. O halda bu ayə bir kimsənin qızının oğlunun, öz oğlu yerində olduğuna dəlalət edir. Həzrət Peyğəmbərin mübahiləyə İmam Həsənlə İmam Hüseyni aparmasının hikmətinə gəldikdə isə, bu məlumdur ki, onların Allah-Taala yanında çox uca məqamları vardır. Bundan başqa, Həzrət Peyğəmbərin uşaqlarını və nəvələrini mübahiləyə aparması və onlara **"Siz də mənim duama amin deyin!"** buyurması kafirləri son dərəcədə qorxutduğu kimi, Allah Rəsulunun özünün tam haqlı olduğuna güvəndiyinin çox qüvvətli bir dəlilidir (Ustaosmanoğlu 1991, s.571).

Bu ayənin nazil olması haqqında məşhur hədisşünas Müslim bin Həccac ən-Nisaburi (821-875) yazırdı:

لَمَّا نَزَلَتْ هَذِهِ الْآيَةُ **(فَقُلْ تَعَالَوْا نَدْعُ أَبْنَاءَنَا وَأَبْنَاءَكُمْ ...)** دَعَا رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ عَلِيًّا وَفَاطِمَةَ وَحَسَنًا وَحُسَيْنًا فَقَالَ: **اللَّهُمَّ هَؤُلَاءِ أَهْلِي.**

"Mübahilə ayəsi nazil olan zaman Həzrət Peyğəmbər Əlini, Fatiməni, Həsən və Hüseyni çağırdı və dedi: **"Ey Rəbbim, bunlar mənim əhli-beytimdir"** (ən-Nisaburi, 1419/1999, s.1067. Hədis № 6261).

Sözügedən ayənin Əhli-beytin şəninə aid olduğunu bildirən alimlərdən biri də Carullah Zəməxşəridir. Müəllifə görə də "Ali-İmran" surəsinin 61-ci ayəsi Əhli-beytin fəzilət və üstünlüyünə dair Qurani-Kərimin ən mühüm dəlillərindən sayılır. Çünki ayədə Uca Allah Əhli-beyti Rəsulunun ruhu (canı) kimi təsvir etmişdir. Carullah Zəməxşəri özündən əvvəlki təfsir və hədisşünaslara istinad edərək sözügedən ayənin nazil olma səbəbini qeyd edərkən onun Həzrət Peyğəmbərin Nəcranlı xristian heyəti ilə olan söhbətinə görə nazil olduğunu bildirmiş və onu təfərrüatlı şəkildə təhlil edərək yazırdı:

روي أنّهم لمّا دعاهم إلى المباهلة قالوا: حتّى نرجع وننظر فلمّا تخالوا قالوا للعاقب، وكان ذا رأيهم، يا عبد المسيح، ما ترى؟ فقال: والله لقد عرفتم يا مَعشَر النصارى أنّ محمّداً نبيٌ مُرسل ولقد جاءكم بالفصل مِن أمر صاحبكم والله ما باهلَ قومٌ نبيّاً قط فعاش كبيرهُم ولا نبتَ صغيرهم، ولئن فعلتم لتهلكنّ فإنْ أبيتم إلاّ إلف دينكم والإقامة على ما أنتم عليه فوادعوا الرجلَ وانصرفوا إلى بلادكم، فأتوا رسول الله وقد غدا محتضناً الحسين آخذاً بيد الحسن وفاطمة تمشي خلفه وعليٌّ خلفها وهو يقول: **(إذا أنا دعوتُ فأمّنوا).**

فقال أسقف نجران: يا معشر النصارى إنّي لأرى وجوهاً لو شاء الله أنْ يزيل جبَلاً من مكانه لأزاله بها، فلا تباهلوا فتهلكوا ولا يبقى على وجه الأرض نصراني إلى يوم القيامة. فقالوا: يا أبا القاسم رأينا أنْ لا نباهلكَ وأنْ نقرّك على دينك ونثبت على ديننا، قال: **(فإذا أبيتم المباهلة فأسلموا يكن لكم ما للمسلمين وعليكم ما عليهم)**، فأبوا قال: **(فأنّي أناجزكم)**، فقالوا: ما لنا بحرب العرب طاقة ولكن نصالحك على أنْ لا تغزونا ولا تخيفنا ولا تردّنا عن ديننا، على أنْ نؤدّي إليكَ كلّ عام ألفي حلّة ألف في صَفَر وألف في رجَب وثلاثين دِرعاً عاديّة من حديد فصالحهم على ذلك، وقال: **(والذي نفسي بيده إنّ الهلاك قد تدلّى على أهل نجران، ولو لاعنوا لمُسخوا قِردةً وخنازير ولا ضطرم عليهم الوادي ناراً، ولأستأصل الله نجران وأهله حتّى الطير على رؤوس الشجر، ولما حال الحول على النصارى كلّهم حتّى يهلكوا).**

"Belə nəql edilir ki, Nəcran xristianları mübahiləyə dəvət edildikdə özləri arasında mübahisə və çəkişmə yarandı. Onlar ağsaqqalları olan Aqibə dedilər: "Ey Əbdülməsih! Onların fikirləri nədir? Bizə nə edəcəyimizi söyləməyi təklif etdilər?" Aqib dedi: "Ey xristian tayfası! Siz bilirsiniz ki, Məhəmməd göndərilmiş peyğəmbərdir və o sizin peyğəmbəriniz haqqında da həqiqəti gətirmişdir. And olsun Allaha! Hər hansı bir peyğəmbərlə lənətləşdikdən sonra böyükləri yaşayan, kiçiklərinin isə nəsillərini davam etdirən heç bir qövm yoxdur. Əgər onlarla mübahilə etsəniz, həlak olacaqsınız. Dininizə bağlı qalmaq, inancınızı davam etdirmək istəyirsinizsə, o zaman onunla razılığa gəlin və geri

qayıdıb ölkənizə gedin". Onlar Həzrət Peyğəmbərin yanına getdilər. Həzrət Peyğəmbər İmam Hüseyni qucağına almış, İmam Həsənin əlindən tutmuş, Həzrət Fatimə onun arxasında, İmam Əli də Həzrət Fatimənin ardınca gəlirdilər. Həzrət Peyğəmbər onlara deyirdi: **"Mən dua etdikdə, siz də amin deyin!"** Bunun üzərinə Nəcran xristianlarının dini rəhbəri dedi: "Ey xristianlar! Elə üzlər görürəm ki, əgər Allah bir dağı yerindən qopartmaq istəsə, bunu onların vasitəsi ilə edərdi. Buna görə də mübahilə etməyin, yoxsa həlak olarsınız və Qiyamət gününədək yer üzündə bir xristian belə qalmaz!" O, sonra həzrət Peyğəmbərin yanına gəlib dedi: "Ey Əbülqasim! Biz düşündük və səninlə mübahilə etməməyə qərar verdik. Biz səni dininlə baş-başa buraxır və öz dinimizdə sabit qalmağımızı düşünürük". Həzrət Peyğəmbər dedi: **"Əgər mübahilə etmirsinizsə, müsəlman olun! Müsəlmanlara aid haqlar da sizə şamil olsun"**. Onlar üz çevirdikləri zaman Həzrət Peyğəmbər **"O zaman sizə müharibə elan edirəm!"** – deyə buyurdu. Onlar: "Bizim ərəblərlə müharibə edəcək gücümüz yoxdur, lakin səninlə sülh imzalaya bilərik. Bizə hücum etməyəcəyinin, bizi qorxutmayacağının və dinimizdən döndərməyəcəyinin qarşısında sənə hər il biri səfər ayında, biri də rəcəb ayında olmaqla iki min libas, dəmirdən düzəldilmiş otuz ədəd zireh verəcəyik". Həzrət Peyğəmbər buna razılaşmışdı. Sonra Həzrət Peyğəmbər belə buyurmuşdur: **"Canım əlində olan Allaha and olsun ki, əzab Nəcran əhlinə yaxınlaşmışdı. Əgər Nəcran əhli mübahlə etsəydilər meymun və donuza dönəcək, vadi od olub başlarına töküləcəkdir. Uca Allah Nəcranın və ağacların təpələrindəki quşlara qədər bütün varlıqların kökünü kəsəcəkdir və bir il tamam olmadan bütün xristianların kökləri kəsiləcəkdir"**.

Zəməxşəri daha sonra əlavə edir: "Nə üçün Allahın Rəsulu öz övladlarını bu vəziyyətdə gətirdi?" Cavabında deyirik ki, Həzrət Peyğəmbərin bu hərəkəti öz dininin doğruluğundan əmin olduğu üçün idi. O, sevdiklərinin ən yaxşısını özü ilə gətirmişdi. Çünki bununla o, sadəcə özünü Uca Allahın lənətinə məruz qoymaqla kifayətlənməmiş, insanlar arasında ən çox sevdiklərini, ciyərparələrini də bura daxil etmiş və bu şəkildə mübahiləyə çağırmışdır. Həm də bununla o, rəqiblərinin yalan danışdığına tam əmin olduğunu bildirmişdir. Bu həm də onu göstərir ki, əgər mübadilə edilərsə, onun bütün sevdikləri və yaxınları ilə birlikdə rəqibinin də kökü kəsiləcək və məhv olacaqdır" (Zemahşeri (1) 2016, s.957-959). Həmçinin o, Ümmülmömininin Aişənin belə dediyini nəql edir:

إنّ رسول الله خرج وعليه مرط مرجل مِن شعرٍ أسود
فجاء الحسن فأدخله، ثمّ جاء الحسين فأدخله ثمّ فاطمة ثمّ عليّ
ثمّ قال: **(إنّما يُريد الله ليُذهب عنكم الرجس أهل البيت).**

"Peyğəmbər bir dəfə qara saçdan tikilmiş naxışlı əbası ilə (evdən) çıxdı. İmam Həsən onun yanına gəldikdə, onu paltarının altına aldı. Sonra İmam Hüseyn, sonra Həzrət Fatimə və daha sonra isə İmam Əli gəldi. O, onların hamısını əbasının altına aldı və Əhzab surəsinin 33-cü ayəsini oxudu: ***"Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!"*** Bunu qeyd edək ki, Zəməxşəri sözügedən hədisi Müslüm bin Həccac ən-Nisaburinin (821-875) "Səhihi-Müslim" əsərindən iqtibas etmişdir. Çünki bu hədis adı çəkilən əsərin "Fəzailüs-səhabə" fəslində keçir (ən-Nisaburi 1419/1999, s.1067. Hədis № 6261).

Zəməxşərinin bu sözləri və "Mübahilə" ayəsinə verdiyi izahı Həzrət Peyğəmbərin Əhli-beytinə münasibətindən xəbər verir. Xatırladaq ki, bu fikri böyük təfsir alimlərindən olan Fəxrəddin ər-Razi (1148-1210) də "Məfatihül-ğeyb" əsərində qeyd etmişdir" (er-Razi 1994, s.370-371).

Göründüyü kimi, Zəməxşəri hədisdə Həzrət Peyğəmbərin başqalarının əbanın altına girməsinə icazə vermədiyini qeyd etməsə də, bu rəvayəti həm Əhli-beytin fəzilətinə və həm də onların hər cür pislikdən pak olmasına dəlil kimi irəli sürmüşdür. Hətta Zəməxşəri sözünün davamında belə qeyd etmişdir: "Uca Allah ayədə Peyğəmbərin özündən əvvəl onun oğul və qızını qeyd etmiş, bununla da onların dəyər və üstünlüklərini diqqətə çatdırmışdır. Həmçinin bununla da qadın və uşaqların insana canından daha qiymətli olduğunu və onların uğurunda can verməyə layiq olduqlarını bildirmək istəmişdir. Quranda Əhli-beytin fəzilətinə aid bu ayədən möhkəm ayə tapmaq mümkün deyildir" (Zemahşeri (1) 2016, s.960; əz-Zəməxşəri (7) 1407/1986, s.308).

Bununla da o, Əhli-beytin fəzilətlərini açıq-aşkar qeyd edir və bu, böyük bir təfsir-şünasın öz fikrini və onun düzgünlüyünü ifadə etməkdə hikmət və hünərini göstərir.

Bu məqamı da qeyd etmək əbəs deyil ki, Zəməxşəri özü "Kisa" hədisində Allah Rəsulunun Əhli-beytinin məhz yuxarıda qeyd edilən kimsələrdən ibarət olduğunu desə də, əslində Həzrət Peyğəmbərin zövcələrini də Əhli-beytdən hesab edərək yazırdı: "Ayədən aydın olur ki, Peyğəmbərin zövcələri Əhli-beytdəndir".

Xatırladaq ki, "Ali-İmran" surəsinin 61-ci ayəsinin Əhli-beytin fəzilətlərinə aid olduğunu Şeyx Əhməd Mustafa əl-Məraği ("Təfsirül-Məraği", III c, s.171), Şeyx Süveysi əl-Ayatləğəvi ("Üyunüt-təfasir", s.66), Şeyx Məhəmməd Məhmud Hicazi ("ət-Təfsirül-vazeh, III c, s.57), Şeyx Süleyman əl-Əcili əş-Şafei ("əl-Futuhatül-İlahiyyə", I c, s.283), İbn Cövzi Cəlaləddin əl-Bəğdadi ("Zadül-məsir fi ilmit-təfsir", s.399), Əllamə əl-Hənəfi Şeyx Əli əl-Məhayimi ("Təbirür-Rəhman və təysirül-mənar", I c, s.61), Şeyxulislam Əbu Səud bin Məhəmməd ("Təfsiru Əbi Səud", Misir tarixsiz, I c, s.244), Cəlaləddin əs-Süyuti ("Mutərikül-əqran fi icazil-Quran", s.562), Şeyx Məhəmməd Əbduh ("Təfsirül-Quranil-Həkim", III c, s.322), Məhəmməd bin Əli ət-Tirmizi ("Səhihüt-Tirmizi", s.293), Əhməd bin Hənbəl ("Müsnədu-Əhməd", I c, s.175), Hakim ən-Nisaburi ("əl-Müstədrək ələs-səhiheyn", III c, s.150), Übeydullah bin Abdullah bin Əhməd Hakim əl-Həskani ("Şəvahidüt-tənzil", I c, s.124-129.) kimi məşhur alimlər də bildirmişlər.

Bütün bu deyilənlərdən başqa, Əhli-beyt imamlarından nəql olunan hədislərdə də Əhli-beyt məfhumunun məhz yuxarıda adlarını qeyd etdiyimiz şəxslər haqqında olduğu təsdiqlənir. Belə ki, Əllamə əl-Məclisi (1628-1700) Şeyx əl-Müfidin (945-1022) "əl-Füsul" əsərinə istinadən yazırdı:

قال المأمون يوما للرضا عليه السلام: أخبرني بأكبر فضيلة لأمير المؤمنين عليه السلام يدل عليها القرآن، قال: فقال الرضا عليه السلام: **فضيلة في المباهلة، قال الله جل جلاله: (فمن حاجك فيه من بعد ما جائك من العلم فقل تعالوا ندع أبنائنا وأبناءكم ونساءنا ونساءكم وأنفسنا وأنفسكم ثم نبتهل فنجعل لعنة الله على الكاذبين) فدعا رسول الله صلى الله عليه وآله الحسن والحسين عليهما السلام فكانا ابنيه، ودعا فاطمة عليها السلام فكانت في هذا الموضع نساءه ودعا أمير المؤمنين عليه السلام فكان نفسه بحكم الله عز وجل، وقد ثبت أنه ليس أحد من خلق الله تعالى أجل من رسول الله صلى الله عليه وآله و أفضل، فواجب أن لا يكون أحد أفضل من نفس رسول الله بحكم الله عز وجل ...**

"Bir gün Məmun İmam Rzaya dedi: "Mənə Qurani Kərimdə Əmirəlmöminin Əlinin ən böyük fəziləti haqqında xəbər ver!" İmam Rza dedi: "(Onun) **fəzilət və üstünlüyü "Mübahilə" ayəsindədir. Uca Allah buyurur: "**(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) **sənə göndərilən elmdən** (məlumatdan) **sonra buna** (İsanın əhvalatına) **dair səninlə mübahisə edənlərə de: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü** (bura) **çağıraq! Sonra** (Allaha) **dua edib yalançılara Allahın lənət etməsini diləyək!". Peyğəmbər Həsəni, Hüseyni çağırdı. Onlar Allah Rəsulunun oğlanları idilər. Sonra Fatiməni çağırdı. Bu məsələdə o, Peyğəmbərin xanımı** (qızı) **idi. Sonra Əmirəlmöminin Əlini çağırdı. O, Allah-Taalanın hökmü ilə Peyğəmbərin canı idi. Artıq sübut olunur ki, Uca Allahın yaratdıqlarından heç bir kəs fəzilətdə ondan üstün deyil. Vacibdir ki,** (bilək) **Allahın hökmü ilə heç bir şəxs Peyğəmbərin canından üstün deyildir..."** (əl-Məclisi 1403/1983, s.257).

**"Ənfal" surəsi 25-ci ayə**

Allah-Taala həmin ayədə buyurur:

**وَاتَّقُوا فِتْنَةً لَا تُصِيبَنَّ الَّذِينَ ظَلَمُوا مِنْكُمْ خَاصَّةً...**

***"Sizdən təkcə zalımlara toxunmayacaq*** (pis əməllərin müqabilində hamıya üz verə biləcək) ***bəladan qorxun".***

Zəməxşəri ayənin nazil olması haqqında yazırdı:

وعن الحسن: نزلت في عليّ وعمار وطلحة والزبير وهو يوم الجمل خاصة. قال الزبير: نزلت فينا وقرأناها زماناً، وما أرانا من أهلها، فإذا نحن المعنيون بها.

وعن السدي: نزلت في أهل بدر فاقتتلوا يوم الجمل.

وروي: أن الزبير كان يساير النبي صلى الله عليه وسلم يوماً، إذ أقبل عليّ رضي الله عنه، فضحك إليه الزبير فقال رسول الله صلى الله عليه وسلم: **كيف حبك لعليٍّ؟** فقال: يا رسول الله، بأبي أنت وأمي، إني أحبه كحبي لوالدي أو أشدّ حباً. قال: **فكيف أنت إذا سرت إليه تقاتله.**

"Həsən Bəsri belə nəql edir: "Bu ayə Əli, Əmmar, Təlhə və Zübeyr haqqında nazil olmuş,

fitnə də xüsusi olaraq Cəməl döyüşünün baş verdiyi gündür. Zübeyr belə demişdir: “Bu ayə bizim haqqımızda enmişdir, lakin biz uzun müddətdir ki, bunun bizim haqqımızda olduğunu düşünmədən oxuduq. Məlum oldu ki, bu ayələrlə biz nəzərdə tutulmuşuq!”.

Suddidən də belə rəvayət edilir: “Cəməl döyüşündə bir-biri ilə vuruşan Bədr qaziləri haqqında nazil olmuşdur”.

Rəvayətə görə, bir gün Zübeyr Həzrət Peyğəmbərlə birlikdə gedərkən İmam Əli qarşıya çıxdı. Zübeyr İmam Əliyə gülümsədikdə, Həzrət Peyğəmbər soruşdu: **“Əliyə olan məhəbbətin necədir?”** Zübeyr dedi: “Ata-anam sənə fəda olsun, ey Allahın Rəsulu! Mən onu valideynlərimi sevdiyim qədər, bəlkə daha çox sevirəm!” Həzrət Peyğəmbər buyurdu: **“Onu öldürmək üçün üstünə gedəcəksən, görək onda sevgin necə olacaq?!”** (Zemahşeri (2) 2016, s.1114-1115).

**“Tövbə” surəsi 1-ci ayə**

Uca Allah həmin ayədə belə buyurur:

**بَرَاءةٌ مِّنَ اللهِ وَرَسُولِهِ إِلَى الَّذِينَ عَاهَدتُّم مِّنَ الْمُشْرِكِينَ.**

**“Allahdan və Onun Peyğəmbərindən saziş bağladığımız müşriklərə** (onlarla olan əhdlərinin pozulması, əlaqələrin kəsilməsi barədə) **bir xəbərdarlıq!”**.

Carullah Zəməxşəri “Tövbə” surəsinin ilk ayəsinin təfsirini yazarkən belə qeyd edirdi:

وكان نزولها سنة تسع من الهجرة وفتح مكة سنة ثمان، وكان الأمير فيها عتاب بن أسيد، فأمّر رسول الله صلى الله عليه وسلم أبا بكر رضى الله عنه على موسم سنة تسع، ثم أتبعه علياً رضى الله عنه راكب العضباء ليقرأها على أهل الموسم، فقيل له: لو بعثت بها إلى أبى بكر رضى الله عنه؟ فقال: **لا يؤدى عنى إلا رجل منى**، فلما دنا علىّ سمع أبو بكر الرغاء، فوقف، وقال: هذا رغاء ناقة رسول الله صلى الله عليه وسلم، فلما لحقه قال: أمير أو مأمور؟ قال: مأمور. وروى أنّ أبا بكر لما كان ببعض الطريق هبط جبريل عليه السلام فقال: يا محمد، لا يبلغنّ رسالتك إلا رجل منك، فأرسل علياً، فرجع أبو بكر رضى الله عنهما إلى رسول الله صلى الله عليه وسلم فقال: يا رسول الله، أشىء نزل من السماء قال: **نعم، فسر وأنت على الموسم، وعلىّ ينادى بالآى.**

“Bu ayələr hicrətin 9-cu ilində nazil olmuşdur. Məkkənin fəthi isə hicrətin səkkizinci ildə baş vermişdir. Həzrət Peyğəmbər Əbubəkri (r) 9-cu ilin həcc mövsümü üçün əmir təyin etmişdir. O zaman Əttab bin Əsid (öl. 634) vali idi. Həzrət Peyğəmbər Əbubəkri (r) doqquzuncu ilin həcc ziyarətinə göndərdi. Ondan sonra İmam Əlini onun ardınca Ədba adlı dəvəsinə mindirib Məkkəyə göndərdi və zəvvarlara bu surəni oxumağı tapşırdı. Allahın Rəsuluna dedilər: “Əgər surəni Əbubəkirə göndərsən o oxusa olmazmı?” Həzrət Peyğəmbər buyurdu: **“Yalnız mənim nəslimdən olan biri son xəbərdarlığımı bildirə bilər”.** İmam Əli yaxınlaşdıqda Əbubəkir (r) onun dəvəsinin səsini eşidib: “Bu Peyğəmbərin dəvəsinin səsidir” demiş, İmam Əli gələndə “Sən amir kimi gəlmisən, yoxsa məmur kimi?” – deyə soruşmuş, İmam Əli də “Mən məmur kimi gəlmişəm”, – deyə cavab vermişdir”.

Rəvayətə görə, Əbubəkir (r) yolun bir hissəsini getdiyi zaman Həzrət Cəbrayıl gəlib dedi: “Ey Məhəmməd! Sənin xəbərlərini səndən başqası çatdırmasın, Sən Əlini göndər”. Əbubəkir (r) yoldan geri qayıdıb “Ey Allahın Rəsulu! Göydən bir şey nazil oldumu?” – deyə soruşdu. Həzrət Peyğəmbər dedi: **“Bəli, həcc karvanının başında sən yoluna davam et, Əli isə ayələri elan edəcəkdir”** (Zemahşeri (3) 2017, s.13-14).

**“Yusuf” surəsi 67-ci ayə**

Uca Allah həmin ayədə belə buyurur:

**وَقَالَ يَا بَنِيَّ لا تَدْخُلُوا مِنْ بَابٍ وَاحِدٍ وَادْخُلُوا مِنْ أَبْوَابٍ مُتَفَرِّقَةٍ...**

“(Yəqub) ***dedi: “Oğullarım!*** *(Misirə)* ***eyni bir qapıdan girməyin, ayrı-ayrı qapılardan daxil olun*** (sizə göz dəyməsin)”.

Carullah Zəməxşəri ayəni təfsir edərkən yazırdı:

وإنما نهاهم أن يدخلوا من باب واحد، لأنهم كانوا ذوى بهاء وشارة حسنة، اشتهرهم أهل مصر بالقربة عند الملك والتكرمة الخاصة التي لم تكن لغيرهم، فكانوا مظنة لطموح الأبصار إليهم من بين الوفود، وأن يشار إليهم بالأصابع. ويقال هؤلاء أضياف الملك، انظروا إليهم ما أحسنهم من فتيان، وما أحقهم بالإكرام، لأمر مّا أكرمهم الملك وقرّبهم وفضلهم على الوافدين عليه، فخاف لذلك أن يدخلوا كوكبة واحدة، فيعانوا لجمالهم وجلالة أمرهم في الصدور، فيصيبهم ما يسوؤهم.

عن النبيّ أنّه كان يعوّذ الحسن والحسين فيقول: **أعيذكما بكلمات الله التامّة، مِن كلِّ عينٍ لامّة، ومن كلِّ شيطانٍ وهامّة.**

“Həzrət Yaqubun öz uşaqlarına bir qapıdan içəri girmələrinə qadağa qoymasının səbəbi onların geyim-kecimli, yaraşıqlı insanlar

olması, ilk gedişlərində padşaha yaxın olmaları, ondan başqalarının görmədiyini xüsusi bir izzət görmələri və buna görə də Misir xalqı tərəfindən tanınmış ola bilmələridir. Ona görə də ərzaq almağa gələnlərin hamısı xüsusilə onlara baxır və barmaqları ilə işarə edərək deyirdilər: "Bunlar padşahın qonaqlarıdır; bax necə yaraşıqlı cavan oğlanlardırlar! İzzət və ikrama nə qədər də layiqdirlər!" Padşah onları imtiyazlı və digər nümayəndə heyətlərindən üstün tutaraq onlara yemək təklif etmişdi. Buna görə də Həzrət Yaqub onların qrup halında bir qapıdan daxil olub gözəllik və ihtişamları ilə nəzər dəyməsindən və başlarına pis bir işin gəlmələrindən ehtiyat edirdi.

Allahın Rəsulundan belə nəql edilir ki, o, Həsən və Hüseyn üçün istiazə duası oxudu və belə buyurdu **"Sizin ikiniz üçün hər cür bədnəzərdən, gecələr ortaya çıxan həşaratdan Allahın nöqsansız kəlmələrinə həvalə edirəm"** (Zemahşeri (3) 2017, s.649).

**"Məryəm" surəsi 96-cı ayə**

Uca Allah "Məryəm" surəsinin 96-cı ayəsində belə buyurur:

**إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ سَيَجْعَلُ لَهُمُ الرَّحْمَٰنُ وُدًّا.**

***"Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman** (ürəklərdə) **bir sevgi yaradacaq.*** (Allah həm özü onları dost tutacaq, həm də onların məhəbbətini hamının, o cümlədən möminlərin qəlbinə salacaqdır)".

Carullah Zəməxşəri sözügedən ayənin təfsirində yazırdı:

رُوي أنّ النبيّ قال لعليّ رضي اللهُ عنه: يا عليّ، قُلْ: **اللهمّ اجعل لي عندك عهداً، واجعل لي في صدور المؤمنين مودّةً**، فأنزلَ اللهُ هذه الآية.

"Belə rəvayət edilir ki, Həzrət Peyğəmbər İmam Əliyə belə demişdir: **"Ey Əli! "İlahi, Öz dərgahında mənə bir əhd nəsib et, möminlərin qəlblərində mənə yönəlik bir sevgi yarat", - deyə dua et!"** Buna görə də bu ayə nazil oldu. İbn Abbasın nəql etdiyinə görə rəvayət "Allah onları sevəcək və yaratdıqlarına sevdirəcəkdir" şəklindədir. Həzrət Peyğəmbərin **"Mən onu sevdim, sən də onu sev"**, - deyə buyurduğu da nəql edilmişdir. Beləcə, Həzrət Cəbrayıl da onu sevər və göy əhlinə **"Allah Əlini sevmişdir, siz də onu sevin"**, - deyə nida etmişdir. Buna görə də bütün göy əhli onu sevir. Sonra da yer əhlinin qəlbinə onun məhəbbətini qoymuşdur. İmam Əlinin sevilməsinin vacibliyi, ona nifrətin isə haramlığını Həzrət Peyğəmbərdən nəql olunmuş bir çox hədislərdə görürük. Belə ki, "Səhihi-Buxari" əsərində belə nəql olunur:

بَعَثَ النَّبِيُّ صلَّى اللهُ عليه وسلَّمَ عَلِيًّا إلى خَالِدٍ لِيَقْبِضَ الخُمُسَ، وكُنْتُ أُبْغِضُ عَلِيًّا، وقَدِ اغْتَسَلَ، فَقُلتُ لِخَالِدٍ: أَلَا تَرَى إلى هذا! فَلَمَّا قَدِمْنَا علَى النَّبيِّ صلَّى اللهُ عليه وسلَّمَ ذَكَرْتُ ذلكَ له، فَقالَ: **يا بُرَيْدَةُ، أَتُبْغِضُ عَلِيًّا؟** فَقُلتُ: نَعَمْ، قالَ: **لا تُبْغِضْهُ؛ فإنَّ له في الخُمُسِ أَكْثَرَ مِن ذلكَ.**

Büreydə bin Həsib deyir: "Həzrət Peyğəmbər xümsü Xalid bin Vəliddən götürmək üçün Əli bin Əbu Talibi göndərdi. Mən Əliyə nifrət edirdim. Çünki o, qüsl etmişdi. Xalidə dedim: "Bunu görmürsən?! Peyğəmbərin yanına yetişdikdə, bunu ona dedim. Peyğəmbər dedi: **"Ey Büreydə, Əliyə nifrət edirsən?"** Dedim: "Bəli!" Dedi: **"Ona heç vaxt nifrət etmə! Çünki o, xümsdan daha çox paya layiqdir"** (əl-Buxari 1419/1999, s.737. Hədis № 4350).

Carullah Zəməxşəri Qətadənin (öl. 735) belə dediyini nəql edir: "Uca Allaha yönələn elə bir bəndə yoxdur ki, qəlbi ona tərəf yönəlmiş olmasın" (Zemahşeri (4) 2018, s.256).

**"Zümər" surəsi 45-ci ayə**

Uca Allah belə buyurmuşdur:

**وَإِذَا ذُكِرَ الَّذِينَ مِن دُونِهِ إِذَا هُمْ يَسْتَبْشِرُونَ.**

**"Ondan** (Allahdan) **başqaları** (bütlər, tanrılar) **yad edildiyi zaman isə onları dərhal sevinc bürüyər"**.

Carullah Zəməxşəri sözügedən ayənin təfsiri haqqında yazırdı:

وفيه وصف لحالهم وإعذار لرسول الله صلى الله عليه وسلم وتسلية له ووعيد لهم.

عن الربيع بن خيثم – وكان قليل الكلام – إنّه أُخبر بقتل الحسين (رضي الله عنه) وسخَط على قاتله وقالوا: الآن يتكلّم فما زادَ على أنْ قال: آه أوَ قد فعلوا وقرأ هذه الآية.

وروى أنّه قال على آثره: قُتِلَ منْ كان رسولُ الله يُجلسه في حِجره، ويضَع فاه على فيه.

"Bu ayədə müşriklərin halı ifadə olunduğu kimi, Həzrət Peyğəmbərə təsəlli vermək, kafirlər üçün isə əzab veriləcəyi təhdidi vardır. Çox az danışan Rəbi bin Xeysəmdən belə nəql olunur: "Həzrət Hüseynin öldürüldüyü xəbəri

verilən insanlar: "İndi artıq danışır..." demişdilər. O, isə "Ah!" çəkmiş və bu işi etdilər artıq" demiş, ardınca da bu ayəni oxumuşdur".

Bir rəvayətdə isə belə deyilir: "Həzrət Peyğəmbərin qucağına aldığı, iyləyib öpdüyü artıq öldürüldü" (Zemahşeri (5) 2018, s.952).

**"Şura" surəsi 23-cü ayə**

Sözügedən ayə təfsir və hədisşünaslara görə "Məvəddət" adlanır. Uca Allah "Şura" surəsinin 23-cü ayəsində belə buyurur:

**قُلْ لَآ اَسْـَٔلُكُمْ عَلَيْهِ اَجْرًا اِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبٰى.**

"(Ya Peyğəmbər!) ***De: "Mən sizdən bunun*** *(risaləti təbliğ etməyimin)* ***müqabilində qohumluq məhəbbətindən*** (əhli-beytə sevgidən) ***başqa bir şey istəmirəm.***"

Ayədəki "**Məvəddət - مَوَدَّةٌ**" kəlməsi **"əl-vüdd - الْوُدُّ**" sözündən götürülüb. Ərəb lüğətinin məşhur alimləri, o cümlədən də Rağib İsfəhani (öl. 1108) və Əhməd Fəyyumi bu sözün məhəbbət və sevgi mənasında olduğunu bildirmişlər.

Ayədə keçən **"qürba - قُرْبَى**" kəlməsi isə **"qürb - قُرْبٌ**" sözündən götürülüb, yaxınlıq və qohumluq mənasını daşıyır. Rağib İsfəhani bu barədə yazır:

"Qurb" (yaxınlıq) kəlməsi "**büd - بُدٌّ**" (uzaqlıq) kəlməsinin antonimidir və bu kəlmə məkan, zaman, nisbət, yaxınlıq, riayət və qüdrət mənalarında işlənir."

Müxtəlif qaynaqlarda Əhli-beytin fəzilət və üstünlüyünün qaynağı olaraq ifadə edilən bu ayənin mövzu ilə birbaşa əlaqəsinin olduğu məlumdur. Çünki həm kəlmə, həm də məna olaraq ayənin Əhli-beyt ilə əlaqəsi danılmazdır. Buna görə də mətndə keçən **"məvəddət"** kəlməsi bütün hədis və təfsir qaynaqlarında "məvəddət ayəsi" adı ilə məşhur olmuş və Əhli-beytin fəziləti üçün dəlil göstərilmişdir.

Carullah Zəməxşəri də "məvəddət" ayəsinin təfsirində belə yazırdı:

روي أنّها لمّا نزلتْ قيل يا رسول الله، مَنْ قرابتك هؤلاء الذين وجبت علينا مودّتهم قال: **عليٌّ وفاطمة وابناهما.** ويدلُّ عليه.

ما رُوي عن عليّ (رضي الله عنه): **شكوتُ إلى رسول الله حسدَ الناس لي فقال: أمَا ترضى أنْ تكون رابع أربعة أوّل مَن يدخل الجنّة، أنا وأنت والحسن والحسين، وأزواجنا عن أيماننا وشمائلنا، وذريتنا خلف أزواجنا.**

وعن النبيّ: **حُرّمِتْ الجنّة عليِ مَن ظَلم أهل بيتي وآذني في عترتي، ومَنْ اصطنع صنيعةً إلى أحدٍ من وِلد عبد المطّلب ولم يُجازه عليها فأنا أجازيه عليها غداً إذا لقيني يوم القيامة.**

"Rəvayətə görə müşriklər özlərinə aid bir yerdə toplaşmış və bir-birlərindən "Məhəmməd bu vəd etdiklərinin əvəzində nəsə istəyirmi? Bu haqda məlumatı olan varmı?" – deyə soruşmuşdular. Buna görə də bu ayə nazil oldu. Ayə nazil olduqdan sonra soruşdular:

"Ey Allahın Rəsulu! Məhəbbəti bizə vacib olan yaxınların kimlərdir?" Həzrət Peyğəmbər buyurdu: **"**(Onlar) **Əli, Fatimə və onun iki oğlanları** (Həsən və Hüseyn)**dir."**

İmam Əlidən nəql olunan bir hədisdə deyilir:

**"İnsanların mənə olan paxıllıqlarından Allahın Rəsuluna şikayət etdim. Həzrət Peyğəmbər mənə dedi: "Sən dördün dördüncüsü olmaq istəmirsən? Cənnətə ilk girəcək şəxslər mən, sən, Həsən, Hüseyndir. Xanımlarımız sağ və solumuzda, zürriyyətimiz isə onların arxasında olacaqlar. Allah-Taala Əhli-beytimə zülm edənə və qəbiləm arasında mənə əziyyət edənlərə cənnəti haram etmişdir. Kim Əbdülmüttəlib övladlarından birinə pislik etsə və bunun cəzası verilməzsə, sabah Qiyamət günü qarşıma çıxdıqda onun cəzasını mən özüm verəcəyəm"** (Zemahşeri (5) 2018, s.1180-1182). Zəməxşəri Əhli-beytin sevilməsinin və onlara ehtiramın zəruriliyini qeyd etmiş, Həzrət Peyğəmbərin digər bir hədisində belə buyurduğunu nəql etmişdir:

قال رسول الله صلى الله عليه وآله وسلم: **ألا ومن مات على حب آل محمد، مات شهيداً، ألا ومن مات على حب آل محمد، مات مغفورا له، ألا ومن مات على حب آل محمد، مات تائبا، ألا ومن مات على حب آل محمد، مات مؤمنا مستكمل الإيمان، ألا ومن مات على حب آل محمد، بشره ملك الموت بالجنة ،ثم منكر ونكير، ألا ومن مات على حب آل محمد، يزف إلى الجنة كما تزف العروس إلى بيت زوجها، ألا ومن مات على حب آل محمد، جعل الله زوار قبره ملائكة الرحمة، ألا ومن مات على حب آل محمد، مات على السنة والجماعة، ألا ومن مات على بغض آل محمد جاء يوم القيامة مكتوب بين عينيه (آيس من رحمة الله) ألا ومن مات على بغض آل محمد، مات كافرأ، ألا ومن مات على بغض آل محمد، لم يشم رائحة الجنة.**

"Hər kim Ali-Məhəmmədin məhəbbəti ilə ölsə, şəhid kimi ölmüşdür. Agah olun! Hər kim Ali-Məhəmmədin məhəbbəti ilə ölsə, tövbə etmiş halda ölər. Agah olun! Hər kim Ali-

Məhəmmədin məhəbbəti ilə ölsə, imanı kamilləşmiş mömin kimi ölər. Agah olun! Hər kim Ali-Məhəmmədin məhəbbəti ilə ölsə, ölüm mələyi, sonra münkər və nəkir ona behişt müjdəsi verər. Agah olun! Hər kim Ali-Məhəmmədin məhəbbəti ilə ölsə, gəlin bəy evinə aparılan kimi (hörmətlə) behiştə aparılar Agah olun! Hər kim Ali-Məhəmmədin məhəbbəti ilə ölsə, Allah taala onun qəbrini mələklər üçün ziyarətgah edər. Agah olun! Hər kim Ali-Məhəmmədin məhəbbəti ilə ölsə, sünnə və camaat əsasında ölmüşdür. Agah olun! Hər kim Ali-Məhəmmədin düşmənçiliyi ilə ölsə, qiyamət günü alnında "Allahın rəhmətindən naümid" sözü yazılan halda gələr. Agah olun! Hər kim Ali-Məhəmmədin düşmənçiliyi ilə ölsə, kafir halında ölmüşdür. Agah olun! Hər kim Ali-Məhəmmədin düşmənçiliyi ilə ölsə, behiştin ətrini dadmaz" (əz-Zəməxşəri (7) 1995, s.213-214).

Bundan başqa, Əbu Cəfər ət-Təbəri (838-923) yazırdı:

حدثني محمد بن عمارة قال: ثنا إسماعيل بن أبان قال: ثنا الصباح بن يحيى المري، عن السدي، عن أبي الديلم قال: لما جيء بعلي بن الحسين رضي الله عنهما أسيرا، فأقيم على درج دمشق، قام رجل من أهل الشام فقال: الحمد لله الذي قتلكم واستأصلكم، وقطع قرنى الفتنة، فقال له علي بن الحسين رضي الله عنهما: **أقرأت القرآن؟** قال: نعم، قال: **أقرأت آل حم؟** قال: قرأت القرآن ولم أقرأ آل حم، قال: **ما قرأت قل لا أسألكم عليه أجرا إلا المودة في القربى؟** قال: وإنكم لأنتم هم؟ قال: **نعم.**

"...Süddi Əbu Deyləmin belə dediyini rəvayət etmişdir: "Əli bin Hüseyn (İmam Zeynülabidin) əsir kimi gətirilib Şamın darvazasında saxlanıldığı zaman şamlılardan bir şəxs ayağa qalxıb belə dedi:

– Sizi öldürən, kökünüzü kəsən və fitnənin buynuzlarını qıran Allaha həmd olsun!

Əli bin Hüseyn o şəxsə dedi:

**– Sən heç Quran oxumusanmı?**

– Bəli, oxumuşam!

**– Sən "Ha Mim"i** ("Şura" surəsini) **oxumusanmı?**

– Mən Quranı axıra qədər oxumuşam, lakin **"Ha Mim"**i oxumamışam.

**– Sən, "Mən sizdən bunun əvəzində heç bir mükafat istəmirəm. Mən sizdən yalnız yaxınlara sevgi istəyirəm"** - **ayəsini oxumamısanmı?**

– O yaxınlar sizlərsinizmi?

– **Bəli, bizik dedi** (ət-Təbəri 1422/2001, s.499; İbn Kəsir 1421/2000, s.269).

Xatırladaq ki, Əhməd bin Hənbəl "Fəzailüs-səhabə" əsərində belə nəql edirdi:

وَفِيمَا كَتَبَ إِلَيْنَا مُحَمَّدُ بْنُ عَبْدِ اللَّهِ بْنِ سُلَيْمَانَ الْحَضْرَمِيُّ، يَذْكُرُ أَنَّ حَرْبَ بْنَ الْحَسَنِ الطَّحَّانَ حَدَّثَهُمْ قَالَ: نا حُسَيْنٌ الْأَشْقَرُ، عَنْ قَيْسٍ، عَنِ الْأَعْمَشِ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: لَمَّا نَزَلَتْ **{قُلْ لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى}**، قَالُوا: يَا رَسُولَ اللَّهِ، مَنْ قَرَابَتُنَا هَؤُلَاءِ الَّذِينَ وَجَبَتْ عَلَيْنَا مَوَدَّتُهُمْ؟ قَالَ: عَلِيٌّ، وَفَاطِمَةُ، وَابْنَاهَا عَلَيْهِمُ السَّلَامُ.

"... İbn Abbas belə rəvayət edir: ***"Mən sizdən bunun əvəzində heç bir mükafat istəmirəm. Mən sizdən yalnız yaxınlara sevgi istəyirəm"*** - ayəsi nazil olduqda, Peyğəmbərdən soruşdular: "Ey Allahın Rəsulu! Sevgisi bizə vacib olan qohumların kimlərdir?" Allahın Rəsulu buyurdu: **"Əli, Fatimə və onların iki oğulları"** (əş-Şeybani (2) 1403/1983, s.669. Hədis № 1141).

İbn Kəsir də sözügedən ayəni bu mənada təfsir etmiş və qeyd edilmiş hədisi məşhur təfsir əsərində yazmışdır. Həmçinin ayənin təfsiri haqqında hədis kitablarında Əhli-beyt imamlarından da fərqli şəkildə bir çox hədis rəvayət edilmişdir. Bu hədisləri İmam Rza (765-818), İmam Hadi (829-868) və İmam Əsgərinin (845-873) səhabələrindən olan Himyəri (öl. 913) İmam Məhəmməd Təqinin (811-835) səhabələrindən olan Bərqi (öl. 887), Əli bin İbrahim əl-Qummi (öl. 920), Firat bin İbrahim əl-Kufi (öl. 963), Məhəmməd bin Yaqub əl-Küleyni (öl. 941) və Şeyx Müfid (945-1022) kimi hədisşünas və təfsirçilər rəvayət etmişlər. Belə ki, Abdullah bin Cəfər əl-Himyəri "Qürbul-isnad" kitabında yazırdı:

هارون بن مسلم قال: وحدثني مسعدة بن صدقة قال: حدثنا جعفر، عن آبائه: أنه لما نزلت هذه الآية على رسول الله صلّى الله عليه وآله: **قُل لا أسئلُكم عَليهِ أجراً إلا الَمودَّةَ في القُربى** قام رسول الله صلّىالله عليه وآله فقال: **أيها الناس إن الله تبارك وتعالى قد فرض لي عليكم فرضاً، فهل أنتم مؤدوه؟ قال: فلم يجبه أحد منهم،** فانصرف فلما كان من الغد قام فيهم فقال مثل ذلك، ثم قام فيهم فقال مثل ذلك في اليوم الثالث، فلم يتكلم أحد. فقال: **يا أيها الناس، إنه ليس من ذهب ولا فضة ولا مطعم ولا مشرب.** قالوا: فألقه إذاً. قال: **إن الله تبارك وتعالى أنزل عليّ قُل لا أسئلكم عليه أجراً إلاَ المَودَّةَ في القُربى.** فقالوا: أما هذه فنعم. فقال أبو عبد الله: **فو الله ما وفى بها إلا سبعة نفر: سلمان، وأبو ذر وعمار والمقداد بن الأسود الكندي، وجابر بن عبد الله الأنصاري، ومولى لرسول الله صلّى الله عليه واله يقال له الثبيت، وزيد بن أرقم.**

“Mənə Harun bin Müslim nəql edib dedi ki, mənə Məsədə bin Sədəqə nəql etdi dedi ki, Cəfər (İmam Cəfər Sadiq (ə) mənə atalarından rəvayət etdi dedi ki: ***“Sizdən təbliğimə qarşılıq bir ödəniş istəmirəm, istədiyim, ancaq yaxınlarıma sevgidir”*** - ayəsi nazil olduqda Həzrət Peyğəmbər ayağa qalxaraq belə buyurdu: **“Ey insanlar! Allah üzərinizə mənimlə əlaqədar bir vacib yükləmişdir. Onu yerinə yetirməzsinizmi?”** Onlardan kimsə Peyğəmbərin bu sualına cavab vermədi. Bunun üzərinə Peyğəmbər ayrılıb getdi. Sonrakı gün olduğunda təkrar danışmaq üçün ayağa qalxdı və bənzər sözlər söylədi. Üçüncü gün də bənzər sözlər söylədi. Heç kim cavab vermədi. Bunun üzərinə Peyğəmbər dedi: **“Ey insanlar! Sizə yüklənən yük qızıl, gümüş, yemək və içəcək deyil”**. İnsanlar dedilər: “Elə isə məsuliyyətimizi bildir”. Peyğəmbər buyurdu: ***“Allah mənə “Sizdən, təbliğimə qarşılıq bir mükafat istəmirəm, istədiyim, ancaq yaxınlarıma sevgidir” ayəsini endirdi”***. İnsanlar dedilər: “Əgər məsələ budursa asandır”. Sonra Əbu Abdullah (İmam Cəfər Sadiq) dedi: **“Allaha and olsun ki, sözündə ancaq yeddi adam dayana bildi ki, onlar bu kəslər idi: Salman, Əbuzər, Əmmar, Miqdad bin Əsvəd əl-Kindi, Cabir bin Abdullah əl-Ənsari, Peyğəmbərin məvalisi Sabit və Zeyd bin Ərqəm”** (əl-Himyəri tarixsiz, s.78. Hədis № 254).

Abdullah əl-Himyəri mövzu ilə bağlı belə başqa bir hədis də nəql etmişdir:

حدثني محمد بن خالد الطيالسي قال: حدثني إسماعيل بن عبد الخالق قال: وقال أبو عبد الله عليه السلام للأحول: **أتيت البصرة؟** قال: نعم. قال: **كيف رأيت مسارعة الناس في هذا الأمر ودخولهم فيه؟** فقال: والله إنهم لقليل، وقد فعلوا وإن ذلك لقليل. فقال: **عليك بالأحداث فإنهم أسرع إلى كل خير.** قال: ما يقول أهل البصرة في هذه الآية: قل لا أسئلُكُم عليهِ أجراً إلا الموذة في القربى؟ قال: جعلت فداك، يقولون: إنها لقرابة رسول الله صلى الله عليه واله وسلم ولأهل بيته. قال: **إنما نزلت فينا أهل البيت في الحسن والحسين وعلي وفاطمة أصحاب الكساء.**

Mənə Məhəmməd bin Xalid ət-Təyalisi nəql edib dedi ki, mənə İsmayıl bin Əbdülxaliq nəql etdi ki, Əbu Abdullah (İmam Cəfər Sadiq) Əhvələ dedi: **“Bəsrəyə getdinmi?”** Əhvəl dedi: “Bəli”. İmam dedi: **“İnsanları Əhli-beytin sevgisi** (məvəddət ayəsi) **haqqında necə gördün?”** Əhvəl dedi: “Allaha and olsun ki, onlar azdırlar. Çalışırlar amma azdırlar”. İmam dedi: **“Hadisələri izlə, çünki onlar bütün xeyrlərə ən sürətli hərəkət edənlərdir”**. Əhvəl dedi: “Bəsrə əhli **“Sizdən, təbliğimə qarşılıq bir mükafat istəmirəm, istədiyim ancaq yaxınlarıma sevgidir”** - ayəsinin Peyğəmbərin qohumları və Əhli-beyti haqqında nazil olduğunu söyləyirlər”. İmam dedi: **“Bu ayə ancaq biz Əhli-beyt haqqında nazil oldu. Həsən, Hüseyn, Əli, Fatimə və Kisa səhabələri haqqında nazil olmuşdur”** (əl-Himyəri tarixsiz, s.128-129. Hədis № 450).

Xatırladaq ki, Məhəmməd bin Yaqb əl-Küleyni (öl. 941) eyni hədisi fərqli bir sənədlə rəvayət etmişdir onun sənədində yer alan ravilər etibarlı və isnadı bitişikdir (müttəsildir).

**“Mücadilə” surəsi 12-ci ayə**

Allah-Taala “Mücadilə” surəsinin 12-ci ayəsində belə buyurur:

**يَا أَيُّهَا الَّذِينَ آَمَنُوا إِذَا نَاجَيْتُمُ الرَّسُولَ فَقَدِّمُوا بَيْنَ يَدَيْ نَجْوَاكُمْ صَدَقَةً...**

***“Ey iman gətirənlər! Peyğəmbərlə*** (hər hansı bir iş barəsində) ***məxfi danışacağınız zaman bu danışıqdan əvvəl*** (ona hörmət əlaməti olaraq yoxsullara) ***sədəqə verin. Bu*** (əməl) ***sizin üçün*** (Allah yanında) ***daha xeyirli, daha pakdır. Əgər*** (sədəqə verməyə) ***bir şey tapmasanız*** (ürəyinizi qısmayın). ***Çünki Allah bağışlayandır, rəhm edəndir!”***.

Carullah Zəməxşəri sözügedən ayəni təfsir edərkən yazırdı: “Rəvayətə görə, insanlar istədikləri şeylər barədə Həzrət Peyğəmbərlə təkbaşına danışmağı o qədər sevirdilər ki, bu da onu yorur və bezdirirdi. Buna görə də ayə nazil oldu və bununla da bu işdən çəkinmələri, Həzrət Peyğəmbərlə danışarkən yoxsula sədəqə vermələri tələb olundu. İmam Əli belə buyurur: **“Bu ayə nazil olanda Peyğəmbər məni çağırıb dedi ki, bu qızıl parçasına nə deyirsən?” Dedim: “Bunu ödəyə bilməzlər”. O, “Nə qədər olsun?” deyəndə, dedim: “Bir taxıl və ya arpa qədər”.**[36] **Həzrət Peyğəmbər dedi: “Sən, həqiqətən də çox az tələbkar bir insansan!”. Nəhayət, insanlar onlara çətin olduğunu gördükdə, kasıbların sıxıntı içində olduqlarına, varlıların isə xəsisliklərinə görə ondan çəkindilər və onu ödəmək istəmədilər”** (Zemahşeri (6) 2020, s.624).

[36] Hər ikisi də təqribən qızılın yüzdə biri qədərdir.

Carullah Zəməxşəri İmam Əlinin belə buyurduğunu yazırdı:

**إنّ في كتاب الله لآية ما عمل بها أحدٌ قبلي، ولا يعمل بها أحدٌ بعدي، كان لي دينار فصرفته فكنتُ إذا ناجيته تصدّقتُ بدرهم.**

**"Allahın kitabında bir ayə vardır ki, məndən əvvəl heç kim ona əməl etməmişdir və məndən sonra da əməl edəcək deyildir. Mənim bir qızılım var idi və Peyğəmbərlə təkbətək söhbət edəndə bir dirhəm sədəqə sədəqə verirdim"** (Zemahşeri (6) 2020, s.624).

Abdullah bin Ömərdən (öl. 693) nəql olunmuş bir rəvayətə görə belə demişdir:

كان لعليّ ثلاث لو كانت لي واحدة منهنّ كانت أحبّ إليَّ من حُمر النِعَم، تزويجه فاطمة، وإعطاؤه الراية يوم خيبر، وآية النجوى.

"Əliyə aid üç şey vardır ki, onlardan sadəcə, biri məndə olsaydı, mənə qırmızı dəvələrə sahib olmaqdan daha sevimli olardı: Fatimə ilə evlənməsi, Xeybər günü bayrağın ona verilməsi və "Nəcva" ayəsi" (Zemahşeri (6) 2020, s.624).

**"ət-Təğabun" surəsi 15-ci ayə**

**إِنَّمَا أَمْوَالُكُمْ وَأَوْلادُكُمْ فِتْنَةٌ...**

**"Həqiqətən, mal-dövlətiniz və oğul-uşağınız** (sizin üçün) **ancaq bir imtahandır"**.

Carullah Zəməxşəri sözügedən ayənin təfsiri haqqında yazırdı:

عن النبيّ أنّه كان يخطب فجاء الحسن والحسين – عليهما السلام – وعليهما قميصان أحمران يعثران ويقومان فنزل إليهما فأخذهما ووضعهما في حِجره على المنبر فقال صدق الله: إِنَّمَا أَمْوَالُكُمْ وَأَوْلادُكُمْ فِتْنَةٌ، رأيتُ هذين الصبيّين فلم أصبر عنهما ثمّ أخذ في خطبته .

"Həzrət Peyğəmbər xütbə oxuyarkən Həsən və Hüseyn əyinlərində qırmızı köynəklə oturub-qalxaraq gəlirlər. Həzrət Peyğəmbər tez minbərdən düşüb onların yanına getmiş, minbərin üstündə onları qucağında oturtmuş, sonra isə demişdir: **"Uca Allah doğru buyurmuşdur: "Həqiqətən, mal-dövlətiniz və oğul-uşağınız** (sizin üçün) **ancaq bir imtahandır". Bu iki uşağı gördükdə səbr edə bilmədim".** Sonra Həzrət Peyğəmbər xütbəsinə davam etmişdir" (Zemahşeri (6) 2020, s.761-762).

**"ət-Təhrim" surəsi 12-ci ayə**

**وَمَرْيَمَ ابْنَتَ عِمْرَانَ الَّتِي أَحْصَنَتْ فَرْجَهَا فَنَفَخْنَا فِيهِ مِنْ رُوحِنَا...**

"(Allah mömin qadınlara) **həmçinin namusunu** (ismətini) **möhkəm qoruyub saxlamış İmranın qızı Məryəmi də misal çəkdi"**.

Carullah Zəməxşəri ayəni təfsir edərkən Həzrət Peyğəmbərin belə buyurduğunu yazırdı:

**كَمَلَ مِنَ الرِّجَالِ كَثِيرٌ، وَلَمْ يَكْمُلْ مِنَ النِّسَاءِ إلاّ أربع: آسِيَةُ بِنْتُ مُزَاحِمٍ امْرَأَةُ فِرْعَوْنَ، وَمَرْيَمُ بِنْتُ عِمْرَانَ، خَدِيجَةُ بِنْتِ خُوَيْلِدٍ، وَفَاطِمَةُ بِنْتُ مُحَمَّدٍ.**

**"Kişilərdən çoxu kamala çatmışdır. Amma qadınlardan kamala çatan yalnız dörd nəfərdir: Fironun xanımı Asiya bint Məzahim, Məryəm bint İmran, Xədicə bint Xüveylid və Fatimə bint Məhəmməd"** (Zemahşeri (6) 2020, s.818).

**"əl-Haqqə" surəsi 12-ci ayə**

Uca Allah "əl-Haqqə" surəsinin 12-ci ayəsində belə buyurmuşdur:

**لِنَجْعَلَهَا لَكُمْ تَذْكِرَةً وَتَعِيَهَا أُذُنٌ وَاعِيَةٌ.**

**"Ona görə ki, bunu** (möminlərə nicat verib kafirləri məhv etməyimizi) **sizə bir ibrət dərsi edək və dərk edən** (öyüd-nəsihəti canidildən dinləyən) **qulaq bunu eşidib yadda saxlasın!"**.

Ayəni izah edən Carullah Zəməxşəri yazırdı: "Ayədəki **أُذُنٌ وَاعِيَةٌ (qavrayışlı qulaq)** sözü eşitdiyini başa düşüb qoruyan, onu zay etməyən qulaq deməkdir. Əzbərləyib yaddaşında saxladığı şey "vai"dir.

وعن النبيّ أنّه قال لعليّ (رضي الله عنه) عند نزول هذه الآية: **سألتُ الله أنْ يجعلها أُذُنك يا عليّ**، قال عليٌّ (رضي الله عنه): **فما نسيتُ شيئاً بعد، و ما كان لي أنْ أنسى.**

Belə nəql olunur ki, bu ayə endikdə Həzrət Peyğəmbər İmam Əlini çağırıb dedi: **"Sənin qulağını belə bir qulağ etməsi üçün Allah-Taalaya dua etmişəm".** İmam Əli deyir ki, **mən bundan sonra unutmadım və unutmağım da mümkün deyildir"** (Zemahşeri (6), 2020. S. 890).

**"əd-Dəhr "("əl-İnsan") surəsi 8-ci ayə**

Allah-Taala "əd-Dəhr" surəsinin 8-ci ayəsində belə buyurmuşdur:

**وَيُطْعِمُونَ الطَّعَامَ عَلَىٰ حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا .**

**"Onlar öz iştahaları çəkdiyi** (özləri yemək istədikləri) **halda** (və ya: Allah rizasını

qazanmaq uğrunda) **yeməyi yoxsula, yetimə və əsirə yedirərlər**”.

Carullah Zəməxşəri ayəni izah edərkən İbn Abbasdan belə nəql olunduğunu yazırdı:

عن ابن عبّاس (رضي الله عنه): إنّ الحسن والحسين مرضا فعادهما رسول الله في ناسٍ معه فقالوا: يا أبا الحسن لو نذرتَ على ولدك فنذر عليٌّ وفاطمة وفضّة - جارية لهما - إنْ برءا ممّا بهما أنْ يصوموا ثلاثة أيّام، فشفيا وما معهم شيءٌ، فاستقرضَ عليٌّ من شمعون الخيبري اليهودي ثلاث أصوع من شعير، فطحنت فاطمة صاعاً واختبزت خمسة أقراص على عددهم، فوضعوها بين أيديهم ليفطروا فوقفَ عليهم سائل فقال:

السلام عليكم أهل بيتَ محمّد، مسكين من مساكين المسلمين، أطعموني أطعمكم اللهُ مِن موائد الجنّة، فآثروه وباتوا لم يذوقوا إلاّ الماء وأصبحوا صياماً فلمّا أمسَوا ووضعوا الطعام بين أيديهم وقف عليهم يتيم، فآثروه، ووقف أسير في الثالثة ففعلوا مثل ذلك، فلمّا أصبحوا أخذَ عليٌّ (رضي الله عنه) بيد الحسن والحسين وأقبلوا إلى رسول الله، فلمّا أبصرهم وهُم يرتعشون كالفراخ من شدّة الجوع قال: ما أشدّ ما يسوءني ما أرى بكم، وقام فانطلق معهم فرأى فاطمة في مِحرابها قد التصق ظهرها ببطنها وغارت عيناها، فساءه ذلك فنزل جبريل وقال: خذها يا محمّد هنّاك اللهُ في أهل بيتكَ فأقرأه السورة.

“Həsən və Hüseyn möhkəm xəstələnmişdilər. Həzrət Peyğəmbər bir neçə adamla birlikdə onları yoxlamağa getmişdi. Onlar dedilər: “Ey Əbülhəsən! Keşkə oğlanlarının sağalması üçün bir nəzir edəsən!” İmam Əli, Həzrət Fatimə və xidmətçiləri Fizzə uşaqlar sağalarlarsa, üç gün oruc tutacaqlarını nəzir etdilər. Bundan sonra Həsən və Hüseyn sağaldı, ancaq yeyiləcək bir şey yox idi. İmam Əli yəhidi Şəmun bin Haban əl-Xeybərinin yanına gedib üç sa[37] borc buğda aldı. Həzrət Fatimə ev əhlinin sayına uyğun olaraq buğdadan beş kündə çörək bişirdi. Elə iftar etmək üçün süfrəyə oturmuşdular ki, birdən bir müsəlman yoxsul onların yanına gəlib səsləndi: “Salam olsun sizə, ey Məhəmmədin Əhli-beyti! Mən yoxsul bir müsəlmanam. Məni yedirdin ki, Allah da sizi Cənnət süfrəsindən yedirtsin”. Onlar bütün çörəkləri yoxsula verdilər. Onlar bütün gecəni yalnız su ilə keçirdilər.

Səhəri gün təkrar oruc tutdular. Elə istəyirdilər ki, iftar etsinlər, onların yanına bir yetim gəldi. Onlar öz yeməklərini yetimə verdilər və həmin gecəni də əvvəlki gecə kimi keçirtdilər. Üçüncü dəfə isə onların yanına bir əsir gəldi. Onlar bu dəfə də yeməyi əsirə verdilər. Səhəri gün İmam Əli Həsən və Hüseyni götürüb Peyğəmbərin yanına getdilər. Həzrət Peyğəmbər onların quş balası kimi acından titrədiklərini gördü və dedi: “Sizi bu vəziyyətdə görmək məni çox üzdü”. Onlar qalxıb Həzrət Fatimənin yanına getdilər. Həzrət Fatiməni ibadət yerində qarnı belinə yapışmış və gözləri çökmüş vəziyyətdə görən Peyğəmbər çox qəmgin oldu. Bu zaman Həzrət Cəbrayıl nazil olub “Ya Məhəmməd! Götür bunu, Allah əhli beytini təbrik edir” – dedi və bu surəni oxudu” (Zemahşeri (6) 2020, s.1072; əl-Hilli 1411/1991, s.92-97).

[37] Bir sa 2,917 kq.-dır.

**“ən-Nəsr” surəsi 3-cü ayə.**

Uca Allah “Nəsr” surəsini Həzrət Peyğəmbərə nazil etmiş, bununla da ona təsəlli vermişdir. Carullah Zəməxşəri surəni təfsir edərkən **فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَاسْتَغْفِرْهُ - Rəbbini həmd-səna ilə təqdis et və Ondan bağışlanmağını dilə!”** - 3-cü ayəsi haqqında yazırdı:

أنّه دعا فاطمة (رضي الله عنها) فقال: يا بنتاه، إنّه نُعيَتْ إليَّ نفسي، فبكتْ، فقال: **لا تبكي؛ فإنّكِ أوّل أهلي لحوقاً بي.**

“Həzrət Peyğəmbər qızı Fatiməni çağırıb dedi: **“Qızım! Mənə ölümüm xəbəri verildi”.** Bunu eşidən Həzrət Fatimə ağladı. Peyğəmbər buyurdu: **“Ağlama! Mənə ailəmdən ilk qovuşan sən olacaqsan!”** (Zemahşeri (6) 2020, s.1450).

**Nəticə**

**“Carullah Zəməxşərinin “Təfsirül-kəşşaf” əsərində Əhli-beytin fəzilətləri haqqında nəql olunmuş hədislər və onların tədqiq-təhlili”** adlı məqaləni yazarkən, aşağıdakı nəticələrə gəlmişik:

“əl-Kəşşaf” və ya “Təfsir-Zəməxşəri” adı ilə məşhur olan əsər böyük Mötəzilə alimi Cərullah Zəməxşəri tərəfindən yazılmış ən məşhur təfsir kitablarından biridir. Sözügedən əsər təfsirşünaslıqda bir çox linqvistik və ritorik üstünlüklərə malikdir. Bununla yanaşı, əsər həm də hədislərin öyrənilməsi baxımından da çox qiymətlidir.

Carullah Zəməxşəri “əl-Kəşşaf” əsərinin müqəddiməsində bu kitabın yazılması hekayəsindən bəhs edərək, əvvəlcə onu öhdəsinə götürmək və onu yazmağa tərəddüd göstərdiyini, lakin sonra bu əsəri yazmaqda qəti qərarlı

olduğunu qeyd etmişdir. Zəməxşəri yazırdı ki, əvvəllər o, Quranın bəzi ayələrini təfsir edərkən dostlarının və tələbələrinin simalarında heyrət və razılıq əlaməti görürdü. Bu da onu Quranın təfsirini yazmağa daha da təşviq edir və belə bir kitabı ərsəyə gətirməyə həvəsləndirirdi. Beləliklə, o, sözügedən kitabı insanlara təqdim edənə qədər Məscidülhəramda yazmağa başlamışdı.

Carullah Zəməxşərinin "əl-Kəşşaf" əsərindəki metodu hər hansı bir ayəni izah edərkən onu daha da dərindən təfsir etmək üçün sorğu-sual və cavab vermə tərzindən istifadə etmişdir. Bunu biz, təfsir boyu müəllifin "desən" sözü ilə sualı qoymasından, "dedim" sözü ilə isə cavab verməsindən aydın şəkildə görürük. Beləliklə, məlum olur ki, Carullah Zəməxşərinin əsəri Mötəzilə məzhəbinə mənsub alimlərin üsulu ilə eynidir. Buna görə də "əl-Kəşşaf" təfsiri haqqında yazan tədqiqatçılar onu ədəbi, ritorik və linqvistik baxımdan tərifləmişlər.

Carullah Zəməxşəri mahir hədisşünas deyildi və bu, onun təfsirində açıq-aydın şəkildə görünür. Lakin buna baxmayaraq, o, "əl-Kəşşaf" əsərində hədis mənbələrindən kifayət qədər bəhrələnmiş, bəzi ayələrin izah olunmasında etibarlı bildiyi əsərlərə dəfələrlə istinad etmişdi. "əl-Kəşşaf"dakı hədislərə baxan hər kəs görər ki, Zəməxşəri "israiliyyat"dan olan rəvayətləri nadir hallarda qeyd edir və zəif rəvayəti qeyd edərkən "rəvayət edilmişdir" ifadəsindən istifadə etmişdir.

Carullah Zəməxşərinin "əl-Kəşşaf" əsərində Əhli-beyt mövzusu özünü qabarıq şəkildə göstərmiş, mövzu ilə bağlı rəvayətlər əsas və mötəbər mənbələrdən götürülmüş və yeri gəldikcə, müəllif onların izah edilməsinə də səy etmişdir. Bu da heç şübhəsiz ki, müəllifin Əhli-beytə olan münasibətinin bariz nümunəsini özündə əks etdirir. Lakin müəllif mövzu ilə bağlı hədislərin az bir hissəsinə diqqət yetirmiş, Əhli-beyt haqqında nəql olunmuş yüzlərlə səhih hədisdən çox azını nəql etmişdir.

## ƏDƏBİYYAT

Celaleyn. (1997). Tefsiri Celaleyn, terc.: Ali Rıza Kaşeli. İstanbul: Fatih Enes Kitabevi, I.

Es-Sabuni Muhammed Ali. (1995). Safvetüt-tefasir, I-VII, terc.: Sadreddin Gümüş, Nedim Yılmaz. İstanbul, Ensar neşriyatı, 1995.

Əş-Şeybani (2) Əhməd bin Hənbəl. (1403/1983). Fəzailüs-səhabə, I-II, Beyrut, Müəssisətür-Risalə, I çap, II.

Əş-Şeybani (1) Əhməd bin Hənbəl. (tarixsiz). Müsnəd, I-VI, Beyrut, Darüs-sadir, VI.

Əl-Buxari Məhəmməd bin İsmail. (1419/1999). Səhihül-Buxari, I-IV, ər-Riyad, Darüs-salam, IV.

Əl-Cövzi Əbülfərəc Əli bin Məhəmməd. (tarixsiz). Kəşfül-muşkil min hədisis-səhiheyn, I-IV, ər-Riyad, Darül-vətən, IV.

Əl-Əsqəlani İbn Həcər. (tarixsiz). Fəthülbari, I-VII, Beyrut, Darüs-sadir, VII.

Əl-Hilli Əllamə Həsən bin Mutəhhər. (1411/1991). Kəşfül-yəqin fi fəzaili-Əmirilmuminin (ə), Tehran, I çap.

Əl-Himyəri Abdullah bin Cəfər. (tarixsiz). Qurbul-isnad, Qum, Müəssisətu-Alil-beyt. I çap.

Əl-Məclisi Əllamə. (1403/1983). Biharülənvar. 110 cilddə, Beyrut, Müəssisətül-vəfa, XXXV.

Ən-Nisaburi Müslim bin Həccac. (1419/1999). Səhihi-Müslim. ər-Riyad, Darüs-Salam.

Əs-Süyuti Cəlaləddin. (1993). əd-Dürrulmənsur, I-VI, Beyrut, Darul-fikir, V.

Əl-Qummi əş-Şeyx əs-Səduq. (1417 h/q). əl-Amali, Qum, Müəssisə əl-Besət.

Ət-Təbəri Məhəmməd bin Cərir. (1422/2001). Təfsiri-Təbəri. I-XX, Qahirə, Darul-hicr, I çap.

Əz-Zəhəbi Şəmsəddin. (1410-1990). Tarixül-İslam. 53 cilddə, Beyrut, Darül-kuttabil-ərəbi, II çap, III.

Hamidullah Muhammed. (1993). İslam Peygamberi, terc: Salih Tuğ. İstanbul, İrfan yapımcılık ve ticaret, V baskı, I.

Haşimi Ali. (tarixsiz). Kuranda Resulullah, terc: Nurettin Yıldız. İstanbul, Risale yayınevi.

Heyət. (2006). Kuran Yolu Türkçə Meal ve Tefsir. Ankara, Diyanet İşleri Başkanlığı Yayınları, I.

İbn Kəsir. (1421/2000). Təfsirül-Quranil-əzim. Müəssisə Qurtubə, I çap, XII.

İbn Teymiyyə. (1406/1986). Minhacüs-sünnə ən-nəbəviyyə, I-IX, Qahirə, Məktəbətu-İbn Teymiyyə, I çap, V.

İbni Hişam. (2001). İslam Tarihi. (Sireti İbni Hişam), terc: Hasan Ege. İstanbul, Kahraman yayınları, II.

İsmail H. (2005). Ruhul Beyan, terc: Heyət. İstanbul: Erkam yayınları, III.

İsmayılzadə İ. (2007). Əhli-Beyt Quran və Hədis baxımından. Qum, Beynəlxalq İslam Elmləri Akademiyası nəşri.

Kutub Seyyid. (1991). Fi zılalil-Kuran, terc: Heyət. İstanbul, Dünya yayıncılık, VIII.

Öz Mustafa. (1994). "Ehli-Beyt". I-X. İstanbul, TDV, X.

Razi Fahrettin. (1994). Tefsiri Kebir, I-VI, terc: Heyət. Ankara, Akçağ yayınları, VI.

Sarı Mevlut. (1982). Arapça-Türkçe luğat. İstanbul, İpek Yayınları.

Ustaosmanoğlu Mahmud. (1991). Ruhul-Furkan Tefsiri. İstanbul, Siraç Kitabevi, III.

Zemahşeri Carullah (1). (2016). Tefsirül-keşşaf, I-VI, terc: M.Coşkun. İstanbul, I.

Zemahşeri Carullah (2). (2016). Tefsirül-keşşaf. I-VI, terc: M.Coşkun. İstanbul, II.

Zemahşeri Carullah (3). (2017). Tefsirül-keşşaf, I-VI, terc: M.Coşkun. İstanbul, III.

Zemahşeri Carullah (4). (2018). Tefsirül-keşşaf, I-VI, terc: M.Coşkun. İstanbul, IV.

Zemahşeri Carullah (5). (2018). Tefsirül-keşşaf, I-VI, terc: M.Coşkun. İstanbul, VI.

Zemahşeri Carullah (6). (2020). Tefsirül-keşşaf, I-VI, terc: M.Coşkun. İstanbul, VI.

Zəməxşəri Carullah (7). (1407/1986). Təfsirül-Kəşşaf, Beyrut, Darül-kutubil-ərəbi, III çap, I.

## Summary

**İbrahim Guliyev**

### "Hadiths narrated about the virtues of Ahl al-Bayt in Jarullah Zamakhshari's work *Tafsir al-Kashshaf* and their study and analysis"

Jarullah Zamakhshari's al-Kashshaf is regarded as one of the greatest and most significant literary commentaries on the Holy Qur'an. Although Jarullah Zamakhshari adhered to the Mu'tazilite school with regard to the principles of Islamic law, his commentary is unparalleled and highly accomplished from a literary perspective. It is therefore not surprising that not only exegetes and hadith scholars, but also men of letters and poets, have expressed their views on this work, emphasizing its uniqueness and authority.

Zamakhshari authored numerous works on literature, hadith studies, and rhetoric. Since he resided in the vicinity of the Kaaba, he became known by the epithet "Jarullah," meaning "the Neighbor of God." It was during this period that he composed his commentary al-Kashshaf. One of the distinguished features of this work is its well-substantiated and reasoned interpretation of the Qur'anic verses related to the virtues and merits of the Ahl al-Bayt. As Jarullah Zamakhshari possessed a profound understanding of the identity of the Ahl al-Bayt, was fully aware of their status in Islam, and had no doubt that numerous hadiths had been transmitted concerning them, he treated the related discussions in al-Kashshaf with particular care and sensitivity.

This is because, according to Qur'anic verses and mutawātir hadiths, the Ahl al-Bayt are regarded as inseparable from the Qur'an. Adhering to one while neglecting the other is tantamount to abandoning both. The Qur'an and the Ahl al-Bayt constitute the essence of prophethood, the continuation of the divine message, and the primary sources guaranteeing the guidance of humanity until the Day of Judgment.

***Keywords:*** *Holy Quran, Ahl al-Bayt, Jarullah Zamakhshari, "al-Kashshaf" interpretation, hadith sources.*

## Резюме

**Ибрагим Гулиев**

**«Хадисы о достоинствах Ахль аль-Бейта, приведённые в произведении Джаруллаха Замахшари *“Тафсир аль-Кашшаф”*, и их исследование и анализ»**

Тафсир «аль-Кашшаф» Джаруллаха Замахшари считается одним из самых великих и наиболее значимых литературных тафсиров Священного Корана. Несмотря на то что Джаруллах Замахшари в вопросах шариатских принципов принадлежал к течению мутазилитов, его тафсир с литературной точки зрения является уникальным и совершенным. Не случайно, что об этом произведении высказывались не только муфассиры и хадисоведы, но также литераторы и поэты, подчёркивая его исключительность и авторитетность.

Замахшари написал множество трудов по литературе, хадисоведению и риторике. Поскольку он проживал вблизи Дома Каабы, он получил прозвище «Джаруллах», то есть «сосед Аллаха». Именно в этот период он и создал тафсир «аль-Кашшаф». Одной из отличительных особенностей данного труда является аргументированное и доказательное толкование аятов, связанных с достоинствами и преимуществами Ахль аль-Бейта. Поскольку Джаруллах Замахшари глубоко осознавал сущность Ахль аль-Бейта, прекрасно знал их положение в исламе и не сомневался в том, что о них передано множество хадисов, в «аль-Кашшафе» он проявил особую внимательность к сведениям, касающимся их.

Это объясняется тем, что согласно кораническим аятам и мутаватирным хадисам Ахль аль-Бейт приравниваются к Корану. Приверженность одному без другого равнозначна оставлению обоих. Коран и Ахль аль-Бейт являются сущностью пророчества, продолжением миссии Посланника и основными источниками, гарантирующими руководство человечества вплоть до Судного дня.


***Ключевые слова:*** *Священный Коран, Ахль аль-Байт, Джарулла Замахшари, интерпретация «аль-Кашшафа», источники хадисов.*